www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 26-27 yanvar 2019-cu il Şənbə № 19 (7189) Qiyməti 60 qəpik

**Xəbər**

## Bakıda dəm qazı ana və üç balasının canını aldı

yazısı səh.2-də

**Gündəm**

### Erməni cəllada Gürcüstanda abidə qoyulmasına Bakıdan etirazlar



**Aqil Abbas:** "Axalkalakidə gürcü yoxdur, vəzifələrdə ermənilərdir"

yazısı səh.5-də

### REAL-ın Milli Şuranın mitinqində iştirakdan imtinasının ilginc səbəbləri

yazısı səh.4-də

### Sabiq deputatla nazirin həbs həyatı - İnsanov geri çəkilmir, "Quska" susur...

yazısı səh.7-də

### Arif Alışanova qarşı "saxta boşanma" ittihamı

yazısı səh.3-də

### Rusiyalı ekspertlər Qarabağla bağlı nikbin açıqlamalar yayır - səbəb

yazısı səh.9-da

### "Potensiallı kadrlar tezliklə digər qurumlarda iş tapacaqlar" - iqtisadçı

yazısı səh.6-da

### Müxalifət Venesuela inqilabını da yamsılayacaqmı...

yazısı səh.4-də

### AŞ-a təqdim olunan 130 nəfərlik siyahıda hansı məhbusların adı var?

yazısı səh.10-da

### Dördüncü sənaye inqilabı dövrü - ilginc kəşflər...

yazısı səh.13-də

### Bayılın "sürüşmə yarası" bir ildir sağalmır: sakinlər narahatdır...

yazısı səh.14-də

### Avtomobillərin geri çağırılmasının gizlinləri

yazısı səh.15-də

# "ABŞ ƏLİYEV-PAŞİNYAN GÖRÜŞÜNÜ HAZIRLAYIR" - SENSASİON İDDİA

Qarabağ danışıqları üzərindən "sirr pərdəsi" götürülür; okeanın o tayından İrəvana mühüm ismarış: Trampın köməkçisi ümid edir ki...; **rusiyalı politoloq:** "Martda Bakı və İrəvan arasında anlaşma imzalanacaq..."




yazısı səh.8-də

# Azərbaycanı kimlər və niyə qarışdırmaq istəyir...

Ekspertə görə Qərb Rusiya, Çin və İranla bağlı planlarına nail olmaq üçün bizim ölkəmiz üzərindən də spekulyasiyalar edə bilər

yazısı səh.3-də



*Elman Nəsirov:* "Saakaşvili Timoşenkoya revanşizm niyyəti ilə dəstək verir"

yazısı səh.12-də



### Ziya Məmmədov məşhur hotelini itirdiyini təsdiqlədi

yazısı səh.6-da



*Qabil Hüseynli:* "Uzaq olmayan bir zamanda mitinqlərin keçirilməsinə icazə veriləcək"

yazısı səh.10-da



## Prezident Kürdəmirdə yol tikintisinə 8,8 milyon manat ayırdı

**Prezident İlham Əliyev Kürdəmir rayonunun Karrar-Bağman-Böyük Kəngərli avtomobil yolunun tikintisinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

Azərtac-ın məlumatına görə, sərəncamla altı min nəfər əhalinin yaşadığı 7 yaşayış məntəqəsini birləşdirən Karrar-Bağman-Böyük Kəngərli avtomobil yolunun tikintisinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 8,8 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

## Güclü külək əsəcək - xəbərdarlıq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Azərbaycanda güclü küləyin əsəcəyi ilə bağlı xəbərdarlıq yayıb. Nazirliyin Milli Hidrometeorologiya Departamentindən "Report"a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında yanvarın 27-də cənub-qərb küləyinin 15-18, arabir 20-25 m/s, yanvarın 28-i günün ikinci yarısından 29-u axşamadək isə şimal-qərb küləyinin 15-20 m/s olacağı, arabir 23-28 m/s-dək güclənəcəyi gözlənilir.**

Azərbaycanın rayonlarında isə yanvarın 28-i gündüz, 29-da bəzi rayonlarda havanın arabir yağıntılı olacağı, ayrı-ayrı yerlərdə yağıntının intensivləşəcəyi gözlənilir. Yanvarın 27-29-da qərb küləyinin bəzi rayonlarda arabir 9-14 m/s, bəzi Kür vadisi rayonlarında arabir 23-28 m/s-dək güclənəcəyi gözlənilir.

## Bakıda dəm qazı ana və üç övladının canını aldı

**Bakının Suraxanı rayonunda dörd nəfər boğularaq ölüb. Oxu.Az-ın məlumatına görə, hadisə rayonun Bülbülə qəsəbəsi Samir Əliyev küçəsində baş verib.**

Ana və üç uşağı dəm qazından boğularaq ölüb. 1990-cı il təvəllüdlü Cəfərova Elmira Fərhad qızı və üç övladı - 2015-ci il Əsgərli Əli, Əsgərli Fatimə və Əsgərli Zəhra dəm qazından boğulublar.

Faktla bağlı Suraxanı Rayon Prokurorluğunda araşdırma aparılır.

## Bank işçisi müştərinin kartından 400 min çəkdi, həbs edildi

**Müştərinin 400 mindən çox pulunu ələ keçirmək istəyən şəxs hakim qarşısına çıxarılıb. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində bank işçisi olmuş Elqar Vəliyevin cinayət işi üzrə məhkəmə iclası davam etdirilib.**

Elqar Vəliyev Bakıda bankdan əmanətçinin külli miqdarda pulunu oğurlamaqda ittiham edilir.

Hakim Azər Paşayevin sədrliyi ilə keçirilən prosesdə məhkəmə istintaqının başa çatdığı elan olunub. Dövlət ittihamçısı çıxış edərək Ə.Vəliyevə cəza istəyib. Prokuror onun 10 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

Məhkəmədə E.Vəliyevin vəkili müdafiə çıxışı edib. Vəkil müdafiə etdiyi şəxsin əməlindən peşman olduğunu və barəsində yüngül cəza təyin edilməsini istəyib.

E.Vəliyev son söz üçün məhkəmədən vaxt istəyib.

Məhkəmənin növbəti iclası yanvarın 1-nə təyin edilib.

Qeyd edək ki, hadisə 2017-ci ilin dekabr ayında baş verib.

Belə ki, E.Vəliyev paytaxtın Nərimanov rayonu ərazisində yerləşən banklardan birində əmanətçinin hesabından 425 min 77 dollar pulu öz kartına köçürüb. Daha sonra o, həbs edilib.

E.Vəliyev bankın texnoloji proseslər şöbəsində baş ekspert vəzifəsində çalışıb.

❑ **İlkin MURADOV**
**Musavat.com**

# "Azərbaycan hesabatları vaxtlı-vaxtında dərc edir" - AŞ PA-nın həmməruzəçisi

**"Azərbaycan hər zaman hesabatları vaxtlı-vaxtında dərc edir".**

"Report"un Qərbi Avropa bürosu xəbəb verir ki, bu sözləri AŞ PA-nın Demokratik İnstitutlara dair Azərbaycan üzrə həmməruzəçisi Stefan Şenak AŞ PA-nın qış sessiyasında "CPT-nin tövsiyələrinə riayət edilməsinin yaxşılaşdırılması: Parlament Assambleyasının və Mili parlametlərin gücləndirilməsi" üzrə qətnamənin müzakirəsi zamanı bildirib.



Stefan Şenak

Həmməruzəçi bildirib ki, İşgəncələrin qarşısının alınması və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza üzrə Avropa Komitəsinin Azərbaycan ilə bağlı hesabatları vaxtlı-vaxtında Azərbaycanda dərc edilib. Bu da demokratiyanın inkişafının göstəricisidir.

Müzakirələr zamanı bildirilib ki, bu hesabatlar Avropa Şurasına üzv ölkələrin yalnız 7-də dərc edilir.

## Məleykə Abbaszadə sınaq imtahanlarının qiymətinin baha olmasından danışdı

**Dövlət İmtahan Mərkəzinin (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadə sınaq imtahanlarının qiymətinin baha olması ilə bağlı iddialara münasibət bildirib.**

"Report"un xəbərinə görə, o, bu fikirlərlə razı olmadığını deyib.

"İnsanlar hesab edirlər ki, bu qiymətlər yalnız imtahanda təqdim olunan kitabçanın kağızının qiymətidir. Amma elə deyil. İmtahan çox mürəkkəb elmi-metodiki prosesdir. İmtahan məzmununun hazırlanması, keçirilməsi, loqistik, təhlükəsizlik və s. məsələlərin hamısı vəsait tələb edir. Təəssüf ki, müəyyən insanlar bu prosesə çox sadə baxırlar", - M.Abbaszadə vurğulayıb.

O əlavə edib ki, bəzi hazırlıq kursları DİM-in təşkil etdiyi sınaq imtahanlarına öz müəllimlərini, dinləyicilərini göndərirlər: "Onlar da imtahandan kitabçanı götürürlər və sonra həmin material əsasında intellektual məhsulumuzu istifadə edirlər. Nəticədə bəzi kurslar elmi işə heç bir vəsait sərf etmirlər".




## Bakı-Sumqayıt elektrik qatarında gediş haqları artırılır

**Yanvarın 28-dən etibarən Bakı-Sumqayıt-Bakı marşrutu üzrə hərəkət edən elektrik qatarlarında gediş haqqında müəyyən dəyişikliklər ediləcək. Bu barədə "Report"a "Azərbaycan Dəmiryolları" QSC-dən bildirilib.**

Məlumata görə, Bakı-Sumqayıt-Bakı marşrutu üzrə hərəkət edən elektrik qatarlarına minik zamanı keçid turniketlərində və bilet kassalarında və köşklərdə yaranan növbələrin aradan qaldırılması məqsədi ilə kağız biletlər ilə yanaşı elektron plastik kartlar istifadə edilir. Bu da sərnişinlərin turniketlərdən vaxt itkisinə yol vermədən sərbəst keçidini təmin edir.

Sərnişinlər kağız biletlərdən istifadə etdikdə, biletlərin yararsız hala düşməsi səbəbindən turniketlərdən keçid zamanı problemlərin yarandığını nəzərə alaraq, eyni zamanda bilet satışı köşklərində, kassalarda yaranmış növbələrin tam aradan qaldırılması, həmçinin sərnişinlərin plastik kartlardan daha çox istifadəyə cəlb edilməsi və bununla da gediş-gəliş zamanı sərnişinlərin rahatlığının təmin edilməsi məqsədilə kağız biletlər və plastik kartlarla gediş haqqı arasında qiymət fərqi tətbiq ediləcək.

Bundan başqa, sözügedən qatarların biznes sinifli vaqonlarında gedişə olan tələbin təklifə uyğunlaşdırılması məqsədilə gediş haqqı tənzimlənəcək.

| İstiqamət | Tarif (manatla) (ƏDV daxil olmaqla) | | | |
|---|---|---|---|---|
| | Ekonom | | Biznes | |
| | Plastik kartla | çap olunmuş biletlə | Plastik kartla | çap olunmuş biletlə |
| Bakı-Sumqayıt (Sumqayıt-Bakı) | 1,0 | 1,10 | 2,00 | 2,10 |
| Bakı-Biləcəri (Biləcəri-Bakı) | 0,40 | 0,50 | 1,60 | 1,70 |
| Bakı-Xırdalan (Xırdalan-Bakı) | 0,60 | 0,70 | 1,80 | 1,90 |
| Biləcəri-Xırdalan (Xırdalan-Biləcəri) | 0,40 | 0,50 | 1,20 | 1,30 |
| Biləcəri-Sumqayıt (Sumqayıt-Biləcəri) | 0,80 | 0,90 | 1,80 | 1,90 |
| Xırdalan-Sumqayıt (Sumqayıt-Xırdalan) | 0,60 | 0,70 | 1,60 | 1,70 |

## Süd məhsullarının saxtalaşdırılması ilə mübarizə gücləndiriləcək

**Kənd Təsərrüfatı Nazirliyi və Qida Təhlükəsizliyi Agentliyi Azərbaycanda süd məhsulları bazarında saxtalaşdırma problemi ilə ciddi məşğul olmaq niyyətindədir.**

Bunu Trend-ə Süd və Süd Məhsulları istehsalçıları və İxracatçıları Assosiasiyasının sədri Samir Eyyubov deyib.

S.Eyyubovun sözlərinə görə, hazırda qurumlar bu istiqamətdə fəal iş aparır və əsas məqsəd məsələni qaydasına salmaqdır.

Assosiasiya sədri qeyd edib ki, bu problem qlobal miqyas alır və iri və orta müəssisələrə normal inkişaf yoluna çıxmağa imkan vermir:

"Saxtalaşdırılmış məhsul demək olar ki, bütün kateqoriyalarda və geniş assortimentdə təmsil olunur. Bu məhsullar həm ticarət nöqtələrində, həm də küçələrdə satılır, bu amillə mübarizə aparmaq lazımdır. Əminliklə deyə bilərəm ki, ticarət obyektlərində satılan süd məhsullarının 50 faizi bu və ya digər formada saxtadır. Bu göstərici küçə ticarətində bir qədər də çoxdur - 70 faiz. Saxta məhsulun əsasında palma yağı dayanır. Yəni, təzə südün təbii yağı alınır və ayrı şəkildə daha baha qiymətə satılır, onun əvəzinə südə bitki yağı, əksər hallarda palma yağı əlavə olunur. Bu şəkildə də məhsul satışa çıxarılır".

S.Eyyubov əlavə edib ki, saxta məhsullarla mübarizə üçün ilk növbədə keyfiyyətə nəzarəti gücləndirmək və məhsulun markalanması məsələsini qaldırmaq lazımdır ki, məhsul barədə informasiya tərkibi ilə uyğun olsun.



## Mehriban Əliyeva ixtisar olunan əməkdaşların işlə təmin edilməsi ilə bağlı "Azərenerji"yə göstəriş verdi

**Birinci vitse-prezident Mehriban Əliyeva "Hərbiləşdirilmiş Mühafizə Dəstəsi" MMC-də çalışan və işdən ixtisar olunan əməkdaşların müvafiq işlə təmin edilməsi barədə "Azərenerji" ASC-yə göstəriş verib.**

2018-ci il dekabrın 13-də bir qrup şəxs "Hərbiləşdirilmiş Mühafizə Dəstəsi" MMC-də tutduğu vəzifəsindən azad olunması ilə bağlı Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevaya məktubla müraciət edib. Müraciətin araşdırılması nəticəsində məlum olub ki, 2018-ci il iyulun 3-də Mingəçevir şəhərindəki Azərbaycan İstilik Elektrik Stansiyasında baş vermiş qəza ilə əlaqədar enerji sisteminin dövlət əhəmiyyətli strateji obyektlərində təxribat və terror xarakterli əməllərin qarşısının alınması üçün qabaqlayıcı tədbirlər kimi bu obyektlərin mühafizəsinin Daxili İşlər Nazirliyinin Mühafizə polisi tərəfindən aparılması barədə qərar qəbul edilib. "Azərenerji" ASC tərəfindən "Azərbaycan İES" MMC-nin mühafizəsinin zəruri hissəsi Daxili İşlər Nazirliyinə həvalə olunduğundan, Mingəçevir və Varvara Su Elektrik Stansiyalarının mühafizəsinin böyük hissəsi Fövqəladə Hallar Nazirliyi tərəfindən həyata keçirildiyindən, eləcə də "Azərbaycan İES" və bir sıra stansiyalarda ağıllı müşahidə kameraları quraşdırıldığından və hasarlama işləri aparıldığından bəzi işçilərin ixtisarı barədə qərar qəbul olunub.

Bütün bunlara yanaşı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva məməlunun işçilərin əmək hüquqlarının bərpa olunması şərti ilə operativ həllinə və onların müvafiq işlə təmin olunmasına dair göstəriş verib.

YENİ MÜSAVAT
N 19 (7189) 26 yanvar 2019

**AzTV-nin sədri vəzifəsindən azad olunan Arif Alışanovun ailə həyatında da problemlər yaşanmağa başlayıb. Mətbuatda məlumatlar gedib ki, A.Alışanovun xanımı, Hesablama Palatasının auditoru Mehriban Alışanova keçmiş sədrdən boşanıb. Bildirilir ki, bu ayrılıq prosesi Alışanovun işdən çıxarılmasından bir qədər öncə baş tutub.**

# Arif Alışanova qarşı "saxta boşanma" ittihamı

## Vəkil "bununla məhkəməni aldada bilməyəcək" deyir; **Azad İsazadə:** "Saxta boşanma sovet dövründə daha geniş yayılmışdı"

Mehriban Alışanova hazırda Hesablama Palatasının 5 auditorundan biridir. Onların bu evlilikdən 3 övladı var.

Qeyd edək ki, boşanmaya səbəb kimi maraqlı versiyalar səslənir. Məlumatlardan birində qeyd edilir ki, Arif Alışanovun həyatındakı xanımlar, içki məclislərindəki rəftarı onun ailəsində ciddi narazılıqların yaranmasına səbəb olub.

Keçmiş sədr həmçinin bir müddət əvvəl zərərçəkmiş kimi tanındığı məhkəmə işinə görə gündəmə gəlib və prosesin gedişatında ona qarşı kifayət qədər ciddi ittihamlar səslənmişdi.

Alışanovun keçmiş ortağı və sonradan şikayət edərək həbs etdirdiyi Şücaət Əkbərov Alışanovla bağlı sensasion faktlar açıqlamışdı. Maklerlik fəaliyyəti göstərən Ş.Əkbərov demişdi ki, Arif Alışanov Şamaxıya torpaq almağa gəzdiyi bir qızla gəlirmiş. O, hətta AzTV sədrini 2016-cı ildə həmin qızı öldürməkdə ittiham etmişdi.

A.Alışanovun boşanması ilə bağlı xəbərlər yayılan gündən daha çox müzakirə olunan məsələ isə bunun saxta boşanma olmasıdır. Neyçün ki, dünyanın bir çox ölkələrində, eləcə də Azərbaycanda imkanlı şəxslər əmlaklarının müsadirə olunacağı ehtimalı olanda dərhal boşanma variantına əl atırlar. Bu halda əmlak həyat yoldaşının adına keçirilir və bu zaman onları sığortalamış olurlar. Məhkəmə eks-həyat yoldaşının adına keçirilmiş əmlaklara əl qoyulması ilə bağlı qərar verə bilmir.



Arif Alışanov

**Vəkildən aydınlaşdırma: "Saxta boşanma ilə məhkəməni aldatmaq olmur"**

Amma adının çəkilməsini istəməyən vəkil "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, saxta boşanma bütün hallarda əmlak məsələsinə görə baş verir. Amma müsahibimizin sözlərinə görə, bəzən hökmlərlə hətta müttəhimin qardaşının, əmisi oğlunun adına olan əmlakı da əlindən alırlar. Konkret eks ər-arvad məsələsinə gəlincə, birgə yaşayış dövründə əldə edilmiş əmlak ümumi sayılır. Kimin adına olmasından asılı olmayaraq, əmlak birgə yaşayış dövründə əldə edilibsə, bu, ümumidir: "Bəzi adamlar elə düşünürlər ki, bu addım onları sığortalayır. Amma əslində boşanmaqla məhkəmələri aldatmaq olmur".

Nikahın məhkəmə qaydasında pozulması ər-arvadın bu barədə ərizə verdikləri gündən 1 aydan tez olmayaraq həyata keçirilir. Belə aydın olur ki, Alışanov başına gələcəklərdən xeyli öncə xəbərdar imiş, hələ səd vəzifəsində olarkən boşanmağa qərar verib.

**Azad İsazadə: "Saxta boşanma ilə real boşanmanın fərqini tutmaq mümkün deyil"**

**Psixoloq Azad İsazadə** isə "Yeni Müsavat"a açıqlamasında dedi ki, saxta boşanmaların heç bir psixoloji aspekti yoxdur. Onun sözlərinə görə, cütlüklər bundan hansısa formada xeyir qazanmaq istəyirlər: "Saxta boşanmaqla real boşanmanı fərqini tutmaq mümkün deyil. Bu, onların seçimidir və belə qəbul edirlər. İstəyirlər, nikahda yaşayırlar, istəyirlər boşanıb birgə yaşayırlar. Saxta boşanma və nikahların hüquqi aspektləri daha çoxdur. Saxta nikahlar xaricdə vətəndaşlıq, viza almaq üçün daha çox həyata keçirilir. Bununla bağlı çoxlu sayda Amerika filmləri var. Ekspertlər bunu araşdırıblar. Məhkəmə ekspertizasında ekspertlər olsa bəlkə də bunu müəyyənləşdirə bilərlər".

**A.İsazadə eyni zamanda dedi ki, saxta boşanma daha çox sovet dövründə də var idi. Məsələn, mənzil almaq üçün ailə saxta formada boşanırdı, amma ər-arvad bir yerdə yaşayırdı:** "İndi də bu hallar var. 12 min boşanmanın içində 2-4 min bəlkə daha çox saxta ayrılma ola bilər. Belə hallarla da rastlaşmışam ki, real boşanırlar və bir neçə ildən sonra barışıb bir yerdə yaşayırlar. Amma növbəti dəfə nikah bağlamırlar".

**Yunanlar və türklər saxta boşanma lideridir**

Saxta boşanma dünya ölkələri arasında daha çox Yunanıstanda və Türkiyədə özünü göstərir. Məsələn, son illər Yunanıstanda boşanma halları 20 faiz artıb. Ölkədəki mühasiblər və vəkillər boşanmalar haqqında danışanda "saxta" və "vergi" ifadələrindən daha çox istifadə edirlər. Bu trendi illər öncə çox sayda uşaqları olan qaraçı cütlüklər başladıb. Onlar vergi ödəmədən dövlətdən böyük miqdarda sosial yardım alırdılar. İndi isə ildə təxminən 30 min avro gəliri olan orta sinif ailələrdə də eyni şeyi görə bilirik. Vergi boşanmaları trendə çevrilib. Yunanıstan qanunlarına görə, boşanmış, ya da boşanma tələbi irəli sürən cütlüklər yenidən sosial yardım tələbi edə bilər və 50 faiz daha az vergi ödəyirlər. Bundan başqa, banklar boşanmış cütlüklərin evlərinə və ya iş yerlərinə hacizə gəlmirlər. Bu şəxslərin elektrik, su və qaz xərclərindən böyük miqdarda endirim əldə etmək haqları da var. Yunanıstanda vergi qanunlarına edilən son dəyişikliklərə görə, aylıq gəlirləri 1000 avrodan çox olan cütlüklər isə sosial yardım müraciəti edə bilmirlər. "Times" nəşri bu səbəbdən ölkədə minlərlə ailənin gedərək artan qaz xərclərini ödəmədiklərini və soyuqda yaşadıqlarını yazıb.

Türkiyədə isə saxta boşanmalar bir səbəbə görə baş verir. Belə ki, insanlar ölmüş ata-analarının maaşlarını, təqaüdlərini almaq üçün saxta boşanma saxtakarlığı edirlər. Amma bunu ölkənin Sosial Güvənlik Komitəsi asanlıqla təsbit edir. Hər boşanan cütlük həssaslıqla araşdırılır və saxtakarlığa yol verdikləri halda ciddi cəzaya məruz qalırlar.

❑ **Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

# Azərbaycanı kimlər və niyə qarışdırmaq istəyir...

## Ekspertə görə Qərb Rusiya, Çin və İran planlarına nail olmaq üçün bizim ölkəmiz üzərindən də spekulyasiyalar edə bilər



Nəzakət Məmmədova

**Hakimiyyət təmsilçiləri və deputatları xaricdən Azərbaycanı qarışdırmağa çalışanların olduğunu bəyan edirlər. Ölkəmizdə qarışıqlıq yaranmasında maraqlı qüvvələrin hərəkətə keçdiyi iddiaları irəli sürülür.**

**Politoloq Nəzakət Məmmədova** "Yeni Müsavat"a bu barədə şərhində bildirdi ki, Azərbaycanı qarışdırmaq istəyən qüvvələrin məkrli niyyətinin bir neçə məqsədi ola bilər. Onlar bununla həm hazırkı hakimiyyətə təzyiq göstərməklə müəyyən güzəştlər qoparmaq istəyirlər. Bu güzəştlər çox müxtəlif ola bilər: "Azərbaycan ərazisindən plasdarm, poliqon kimi istifadə etməkdən tutmuş, ölkəmizin iştirak etdiyi meqalayihələrlə bağlı güzəşt əldə etməyədək, silah alışına təhrik etməyə qədər və sair. Bunun üçün ən müxtəlif şəxslərdən, qruplardan istifadə edilir: radikal müxalifət, radikallaşmış dini qruplar, ayrı-ayrı ictimai təşkilat adı altında fəaliyyət göstərən QHT rəhbərləri və üzvləri, araşdırmaçı jurnalist, hüquq müdafiəçiləri və digər qruplar. Onların arasında Qərbin agenti hesab olunan şəxslər də olmamış deyil.

Hər hansı bir ictimai şəxsi əməkdaşlığa cəlb etmək, yaxud sıravi, heç kəsin tanımadığı sıravi bir şəxsin uğurlu piarını qurub onu ictimaiyyətə qəhrəman kimi təqdim etmək də Qərbin siyasi texnoloqlarının əsas metodlarından biridir".

**Politoloq deyir ki, Azərbaycanda ara qarışdırmaqda əsas məqsədlərdən biri ölkəni Rusiya və İrana qarşı istifadə etmək, eyni zamanda Çinin irəli sürdüyü meqalayihələrə mane olmaqdır:** "ABŞ-ı hazırda əsas narahat edən Çin amilidir. Xüsusən, Tramp hakimiyyətə gələndən sonra Amerika ilə Çin arasında ticarət savaşları güclənib. Böyük İyirmiliyin son sammitində də əsas gündəm mövzusu iki ölkə arasındakı ticarət savaşları olmuşdu. Davos İqtisadi Forumunu da Tramp başda olmaqla ABŞ biznes və siyasət elitasının boykot etməsi Çinə qarşı savaşla bağlı idi. Davosda Çinin 2013-cü ildə irəli sürdüyü "Bir qurşaq, bir yol" layihəsinə həsr olunmuş sammit keçirildi. ABŞ bu layihədən çox narahatdır. Çünki Çin və Avropa bu meqalayihələr əsasında birləşir, trilyonlarla dollarlıq ticarət əlaqələri aparılır, Avrasiya inteqrasiyası sürətlənir. Azərbaycanın bu cür layihələrdə əsas ölkələrdən biri olması ABŞ-ı narahat edir".

**Politoloq hesab edir ki, əslində ABŞ-ın Böyük Orta Şərq layihəsinin bir məqsədi İsrailin Yaxın Şərqdəki mövqeyini gücləndirməkdirsə, digər məqsədi Çinin "Bir qurşaq, bir yol" layihəsinin üzərindəki ölkələri qarışdırmaq, layihənin icrasına mane ola bilmədikdə orada iştirak edən ölkələri öz tərəfinə çəkməklə layihəyə nəzarəti ələ keçirməkdir:** "Azərbaycan planetin əhalisinin 63 faizinin yaşadığı bu layihədə iştirak edir. Prezident İlham Əliyevin Davosda qeyd etdiyi kimi Azərbaycan Şimal-Cənub, Şərq-Qərb layihələrinin kəsişdiyi tək ölkədir. Məsələn, Bakı-Qars bu layihəyə daxildir, İran da ona qoşulmaq istəyir. ABŞ-ın təcrid etmək istədiyi İranın bu layihəyə qoşulmaq niyyəti, Rusiya, İran və Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən Şimal-Cənub layihəsi və s. ABŞ-da bəzi dairələri narahat edir. Azərbaycana təzyiqlərin səbəblərindən biri budur.

Azərbaycan ABŞ-la hazırda gərgin münasibətdə olan Türkiyə ilə də yaxın əlaqələrə malikdir. Bəzi hallarda ölkəmiz çətin seçim qarşısında qalır. Məsələn, Türkiyə Azərbaycandan FETÖ-nün terror təşkilatı kimi tanınmasını istəyir. Halbuki, FETÖ-nün ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinə bağlı olduğu ehtimal edilir. Azərbaycanın bu təşkilatı tanıması ABŞ-ı qane etməyəcək. Necə ki, Azərbaycan Qüdsün İsrailin paytaxtı kimi tanınması məsələsində də, ABŞ-ın deyil, Türkiyənin yanında olmuşdu. Azərbaycana radikal müxalifətin etiraz mitinqləri və digər vasitələrlə təzyiqlərin səbəblərindən biri onu tamamilə öz tərəfinə çəkib istədikləri qərarları qəbul etdirmək, Çin, Rusiya, Türkiyə və İrandan uzaqlaşdırmaqdır. Bu, uzunmüddətli, strateji plan sayıla bilər. Başqa bir məqsəd isə Rusiyanı hazırda Ermənistan və Gürcüstandakı fəallıqdan uzaqlaşdırıb güzəştə məcbur etməkdir. Qərb Azərbaycanı qarışdırmaqla Rusiyaya göstərmək istəyir ki, o, burada da təsir imkanlarına malikdir. Amma əslində, Azərbaycanda hakimiyyəti dəyişmək üçün zəmin olmadığını Qərb yaxşı bilir, çünki xalq bu mitinqlərdə fəallıq göstərmir. Sadəcə, bu prosesi dərinləşdirə biləcəyi mesajı verir və Rusiyanı sövdələşməyə təhrik etməyə çalışır".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

REAL Partiyasının Milli Şuranın 26 yanvara təyin etdiyi mitinqə qatılmayacağı ilə bağlı qərar verməsi ilə bağlı yaranan müzakirələr səngimək bilmir. Doğrudur, artıq mitinqin olmayacağı dəqiqləşib. Belə ki, Bakı Şəhər İcra Hakimiyyəti aksiyanın keçirilməsini məqsədəuyğun saymayıb.

# REAL-ın Milli Şuranın mitinqində iştirakdan imtinasının ilginc səbəbləri

## Natiq Cəfərli: "Deyilən məsələlərin qərarımızda bir faiz belə rolu olmayıb"



Amma bu da REAL-a bağlı müzakirələri səngitmir. Çünki mitinqə icazə veriləcəyi təqdirdə belə bu partiyanın iştirak etməyəcəyi dəqiq idi. Halbuki REAL Milli Şuranın 19 yanvar mitinqində aktiv iştirak etmiş, hətta partiyanın rəhbəri İlqar Məmmədov çıxış belə etmişdi.

Belə iddialar var ki, 19 yanvar mitinqində REAL partiya olaraq Milli Şuranın kölgəsində qaldığı, İ.Məmmədovun çıxışının AXCP sədri Əli Kərimli ilə müqayisədə sönük alınması belə qərarın verilməsinə təsir edib. Həbsdəki gənc blogger Mehman Hüseynova əlavə maddələrlə cinayət işinin açılması və 19 yanvar mitinqindən sonra bu cinayət işinə xitam verilməsinin REAL-ın qərarına etiraz etdiyi istisna edilmir.

REAL tərəfdarlarının və üzvlərinin sosial şəbəkələrdə partiyanın bu qərarına etiraz etdikləri yönündə statuslara da rast gəlirik.

**REAL-ın icraçı katibi Natiq Cəfərli** gedən müzakirələrə "Yeni Müsavat"da bu cür nöqtə qoydu: "REAL-ın minlərlə tərəfdarı var. Rəsmi şəkildə üzvlərin sayı artıq iki minə yaxınlaşıb. Könüllü olaraq qeydiyyatdan keçənlərin sayı isə bundan dəfələrlə çoxdur. REAL avtoritar partiya deyil ki, insanlar burada eyni cür düşünsünlər. Bir nəfərin, ancaq sədrin ağzına baxsınlar, onun dediyini təkrarlasınlar, digər partiyalardakı kimi. REAL tərəfdarlarının fərqli düşüncələri normaldır. Müxtəlif fikirlərin olması hər zaman doğru qərarların verilməsində mühüm rol oynayır. Mitinqlərə gəldikdə, REAL yarandığı gündən, hətta hərəkat olduğu dövrlərdə belə aksiyalara münasibətimiz eyni cür olub. Partiyaya çevrildikdən sonra da bu münasibət dəyişməyib. Bizim mitinqlərə münasibətimiz bundan ibarətdir ki, mitinq son hədəf olmamalıdır, vasitəyə çevrilməlidir. Qarşıya qoyulan hədəflərə çatmaq üçün müxtəlif vasitələr olmalıdır ki, onlardan biri də mitinq olsun. Təəssüflər olsun ki, Azərbaycanda çox zaman mitinq məqsədin özünə çevrilib. Bu da zaman-zaman effekt verməyib, yaranan dalğa sönüb. Azərbaycanın son 25 illik tarixini götürsək, bunun onlarla nümunəsinə rast gələrik. Açıq mövqeyimiz daim ortadadır. 2013-cü ildən sonra bu mövzuda dəfələrlə çıxışlarımız, bəyanatlarımız olub. Bu baxımdan REAL-ın verdiyi bu qərar yenilik deyil. 19 yanvar mitinqinə AXCP sədri, hörmətli Əli Kərimlinin dəvəti var idi, İlqar Məmmədova çıxışla bağlı. Partiya olaraq o mitinqin təşkilində iştirak etməmişik, iştirakla bağlı tərəfdarlarımıza çağırışlar da etməmişik. Sadəcə olaraq idarə heyətindəki ciddi müzakirələrdən sonra dəvəti qəbul etdik, partiya adından İlqar Məmmədova çıxış etmək tapşırıldı. İlqar da kifayət qədər uğurlu bir çıxış etdi, siyasi məhbus məsələsində mövqeyimizi tam şəkildə ifadə etdi. Bu məsələdə mövqeyimiz dəyişməyib. Əvvəlcədən böyük ehtimal var idi ki mitinqə icazə verilməyəcək. Biz əgər qeyri-səmimi siyasi qüvvə, təşkilat olsaydıq, gözləyərdik, icazə verilməyəndən sonra hətta siyasi piar gedişi kimi deyə bilərdik ki, İlqar Məmmədovun mitinqdə iştirakı, çıxışı müəyyən ajetaj yaratdı deyə ikinci mitinqə icazə verilmədi. Amma biz hər zaman səmimi olmağa çalışmışıq. Belə ucuz piar gedişlərdən istifadə etməmişik. Ona görə öncədən qərarımızı açıq şəkildə cəmiyyətə bəyan etdik ki, bizim mitinqlərə olan münasibətimiz dəyişməyib. Siyasi partiyalar insanları ümidləndirən addımlar atmalıdır ki, alətlərdən biri kimi sonunda mitinqlərdən istifadə etsin. Bu baxımdan REAL-la bağlı aşağı-yuxarı deyilən fikirlərlə razılaşmıram. Sanki REAL yarandığı gündən hər gün aksiyalar keçirirdi, guya indi imtina etdiyi üçün qınaq obyektinə çevrildi. Əslində eyni xətt üzrə ana xəttimiz nə idisə, bizim 26 yanvar mitinqindən öncəki qərarımız da həmin ana xəttin tərkib hissəsidir. Burada təəccüblü bir şey yoxdur".

**N.Cəfərli M.Hüseynov məsələsinin çözüldüyü üçün REAL-ın belə bir qərar verdiyi yönündə səslənən fikirlərə də münasibət bildirdi:** "Mehman Hüseynov məsələsinin çözülməsi yeni bir situasiya yaratdı. Ümumiyyətlə, biz açıqlamamızda dedik, dəfələrlə bunu təkrar etmişik ki, XXI əsrdə etraf ölkələrdə, dünyada gedən dəyişikliklər onu deməyə əsas verir ki, Azərbaycan siyasi məhbus problemindən birdəfəlik qurtulmalıdır. Bu hökumətin özünə də əslində sərf edir. Çünki siyasi məhbus məsələsi kifayət qədər təzyiq vasitəsindən birinə çevrilib. Bu təzyiqi hökumətin neytrallaşdırmağının ən əsas yolu birdəfəlik bu məsələnin həllidir. Bir neçə məhbusun azadlığa buraxılması ölkədə nə bir situasiyanı dəyişə bilər, nə də təhlükəli bir vəziyyət yaradar. Ona görə də Mehman Hüseynov məsələsinin həll olunmasını pozitiv qarşıladıq. Qarşıdan mart ayı gəlir. Hökumət bu ayda dəfələrlə əfv sərəncamları ilə siyasi məhbusların bir hissəsini azad edib. İndi ümid edirik ki, martın 3-də Mehman azadlığa çıxacaq və ondan sonra da veriləcək əfvlə digər siyasilər də azad olunacaq. Əslində 19 yanvar mitinqinin möhtəşəm alınmasının əsas səbəblərindən biri də Mehmana qarşı açılan əlavə cinayət işi idi. Bu insanların vicdanını zədələmişdi. Mitinqə gələnlərin çoxu məhz bu vicdan məsələsinə görə gəlmişdilər. Azərbaycan üçün fürsət pəncərəsi açılıb. Mart ayında hökumət birdəfəlik siyasi məhbus məsələsini həll etməlidir. Çünki ölkənin qarşısında çox ciddi çağırışlar var. Problemlər də kifayət qədər çoxdur. Siyasi məhbus məsələsinin daim gündəmdə olması hökumət və cəmiyyətimiz üçün heç də yaxşı hal deyil".

**REAL funksioneri partiyalarının AXCP-nin, liderlərinin isə mitinqdə çıxışının Ə.Kərimlinin kölgəsində qaldığı yönündəki iddialara da toxundu:** "Bu məntiqli ehtimal deyil. Ən azından REAL çağırış etməmişdi ki, yüzlərlə, minlərlə tərəfdarı ora gəlsin. Biz 50-60 nəfər civarında adamla İlqarla birlikdə meydana getdik. İlqarın çıxışından sonra da həmən oranı tərk etdik. Çağırışmız olmayıb ki, REAL-çıların az iştirak etməsi ilə bağlı kompleksə düşək. O zaman kompleks yarana bilərdi ki, REAL mitinqin əsas təşkilatçılarından biri olardı, yaxud REAL ayrıca bir mitinq keçirərdi və say etibarı ilə az iştirakçı cəlb edərdi. Bizimlə bağlı indi bu söhbətlərin heç biri yoxdur. İlqarın 6 ilə yaxın həbsxana həyatından sonra ilk publik mitinq çıxışı idi. Düşünürəm ki, kifayət qədər uğurlu çıxış oldu. Mövqeyimizi siyasi məhbus məsələsində kifayət qədər ifadə edə bildi. Onun çıxışı vətəndaşlar tərəfindən çox müsbət qarşılanıb. Təkcə youtubedə çıxışı izləyənlərin sayı 250 minə yaxındır. Deyilən məsələlərin qərarımızda bir faiz belə rolu olmayıb".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Müxalifət Venesuela inqilabını da yamsılayacaqmı...

## Politoloq: "Azərbaycan üçün böyük güclərin o tipli layihələri yoxdur"

**Azərbaycanda bir sıra müxalifət qüvvələri illərdir ki, hansısa yaxın-uzaq xarici ölkələrdə baş verən inqilabları həvəslə izləməklə, onu imitasiya etməklə məşğuldurlar. Hər dəfə hansısa ölkədə inqilab, dəyişiklik olanda həmin qüvvələr dərhal bundan ruhlanır və "inqilab növbəsinin bizə də çatdığı" barədə bəyanatların ardı-arası kəsilmir. Məsələn, Gürcüstanda "qızılgül inqilabı", Ukraynada "narıncı inqilab" olanda Azərbaycan müxalifəti bunları yamsılamışdı. Lakin indiyədək bu proqnozlarında yanılıblar. Gözlədikləri proseslər Azərbaycana keçmir. İndi də uzaq Venesuelada bir neçə gündür ki, inqilab dalğası yaşanır. Uzaq latın Amerikası ölkəsində də baş verən inqilab dalğasından da Azərbaycan daxilində həvəslənənlərin olub-olmayacağı maraqla izlənilir.**

**Politoloq Məhəmməd Əsədullazadə** "Yeni Müsavat"a şərhində bildirdi ki, dünyada hazırda yeni nizam formalaşır: "Burada biz ABŞ və Rusiya arasında strateji toqquşmamların şahidi oluruq. Bundan əlavə, Yaxın və Orta Şərqdə 2011-ci ildən başlayan "Ərəb baharı" adlanan inqilablar, bir layihə idi. Bu coğrafiyada yeni sistem və sərhədlərin təyin olunmasına hesablanırdı. "Ərəb baharı"ndan da əvvəl MDB məkanında üç inqilab olmuşdu - Gürcüstan, Ukrayna və Qırğızısatanda. Bu inqilablardan ilhamlanan ölkə daxilində bəzi siyasi müxalif qüvvələr, xüsusi ilə ənənəvi müxalifət heç bir siyasi divident qazana bilmədi. Çünki qeyd etdiyim kimi, bu inqilablar böyük güclərin layihəsi idi. Bu inqilablardan ruhlananlar fərqində deyildilər ki, Azərbaycan üçün böyük güclərin o tipli layihələri yoxdur. Bu ölkələrdə inqilablar xalq deyil, böyük dövlətlərin müəyyən strateji və taktiki maraq toqquşmasından meydana gəlib. Ona görə də "Qızıl gül", "Məxməri", "Narıncı" inqilablar və "Ərəb baharı" adlanan inqilablardan təsirlənən ənənəvi müxalifət siyasi avantüraya aludə olmuşdular. Lakin sübut olundu ki, o cür inqilabların Azərbaycanda baş verməsi mümkün deyil. Baxmayaraq ki, bundan istifadə edən bəzi müxalif dairələr mesajlar verirlər, əhalini buna səsləyirlər. Göründüyü kimi heç bir effekt olmur. Ona görə ki, Azərbaycan böyük dövlətlərlə qarşılıqlı və balanslı siyasət həyata keçirir. Hazırda Venesuelada baş verən inqilabdan da ənənəvi müxalifət istifadəyə cəhd edir, belə görünür ki, kimlərsə yenə ilhamlanıblar. Ancaq əbəs yerə. Həmişə olduğu kimi, bu dəfə də gözlədikləri dalğa buraya keçməyəcək".


Məhəmməd Əsədullazadə

**Politoloq qeyd etdi ki, Venesuelada ağır sosial-iqtisadi vəziyyət hökm sürür və Venesuelanın prezidenti Nikola Maduronun uzun müddətdir Qərblə, əsasən də ABŞ-la böyük problemləri var. Onu ABŞ açıq hədəfə alıb. Bu ölkə iqtisadi defolt vəziyyətindədir. Venesuelada biz ABŞ və Rusiya-Çin qarşıdurmasını görürük:** "Maraqların təmin olunması üzrə geopolitik gərginlik burada da özünü göstərir. Azərbaycanlı bağlı isə belə bir vəziyyət yoxdur. Sərhədlərimizin yaxınlığında baş verən inqilablardan müxalifət dərs götürə bilmədisə, bunun ölkəmizə hər hansı bir təsiri olmadısa, okeanın o tayından nə təsiri olacaq? Venesuela inqilabını reklam etmək, buna uyğun mitinq keçirmək siyasi fiaskodur və səmərəsizdir. Ümumiyyətlə, bu taktikadan istifadə etmək yanlışdır. Belə bir siyasət heç vaxt effekt verməyəcək. Ona görə də ənənəvi müxalifət ilk növbədə öz siyasətlərində inqilab etməli, 90 -cı illərin şüarlarını kənara atmalıdır. Dünyada baş verən siyasi kataklizmlərdən qorunmaq üçün ölkəmizdə də siyasi-iqtisadi islahatların davam etməsi labüddür".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

Yeni Müsavat
N 19 (7189) 26 yanvar 2019

**Sanki torpaqları işğal altında olan, qız-gəlini təcavüzə məruz qalan, körpələri süngüyə keçirilən, yurd-yuvasından 1 milyon insanı 30 ilə yaxındır didərgin düşən Azərbaycan yox, Ermənistandır. Özlərinin əzabkeş obrazını yaradan, cəlladlarını qəhrəman kimi sırıyan ermənilərə İran bir yandan məhəbbətini əsirgəmir, Rusiya digər tərəfdən havadarlıq edir, hələ bu azmış kimi, Gürcüstan da sevgisini nümayiş etdirir.**

# Erməni cəllada Gürcüstanda abidə qoyulmasına Bakıdan etirazlar

## **Nəzakət Məmmədova:** "Ermənilər Zurabiaşvilinin prezident seçilməsindən sonra hesab edirlər ki, əl-qolları açılıb"

Sonuncu fakt - Axalkalaki rayonunun Buqaşen kəndində Dağlıq Qarabağ müharibəsinin iştirakçısı, erməni hərbi canilərindən olan Mixail Avaqyanın büstünün açılışı növbəti faktdır. Nə Marneulidə, nə Tiflisdə, nə də Qoridə Azərbaycanın Milli Qəhrəmanlarının büstü var.

*Hətta zaman-zaman qardaş və müttəfiq ölkə sayılan Türkiyədə də ermənilərə müəyyən imtiyazlar verilir, ayaq açmalarına şərait yaradılır. Amma erməni tərəfindən işğala və genosidə məruz qalan Azərbaycana qonşu ölkələr bu qədər can yandırmır, ürək qızdırmırlar. Nədir bu erməni sevdası?*

İran və Rusiyanın Ermənistan siyasəti gün kimi aydındır, bəs Azərbaycanla Gürcüstan arasında illərdir mövcud olan mehriban qonşuluq, dostluq və strateji tərəfdaşlıq münasibətlərinə nə üçün xələl gətirilir? Biz nə zaman gürcülərə pislik elədik?

Bu dövlətə ən ağır günlərində iqtisadi dəstəyini verən də, Rusiya ilə münasibətlərinin gərgin vaxtında əlini daşın altına qoyub Gürcüstana investisiya yatıran da, ən ucuz qazı bu ölkəyə satan da biz olmuşuq. Hətta onların kilsələrini qazlaşdırmışıq.

Amma Azərbaycan Qarabağ terrorçusuna büst qoyan Gürcüstana qarşı adekvat addım atmayıb, müharibədə ölmüş hansısa osetin və ya abxazın heykəlini Bakıda yaxud Qazaxda ucaltmayıb.

Abxaziyada separatçı hərəkata oradakı yerli ermənilər böyük töhfə veriblər. Onların yaratdığı "Baqration" batalyonu isə yerli gürcü dinc əhaliyə qarşı xüsusi amansızlığı ilə seçilib. Bunu gürcülərin özləri də zaman-zaman etiraf və bəyan edirlər. İndi görəsən, "Baqration" batalyonunun hansısa hərbi canisinə Ermənistanda və ya lap elə, Cavaxetiyada heykəl qoyulsaydı, buna rəsmi Tiflisin, gürcü xalqının reaksiyası necə olardı?

*Niyə qonşularımız torpağı işğal edilən, xalqı zərər çəkən Azərbaycana yox, Ermənistana sevgisini göstərir?*

**Millət vəkili, yazıçı Aqil Abbas** "Yeni Müsavat"a dedi ki, ermənilərin özlərinə qəhrəman saydıqları hərbçilərinə büst qoydurması bizim günahımız deyil.

**Deputat qeyd etdi ki, Gürcüstan hökumətinin Axalkalakidə sözü keçmir:** "Axalkalaki gürcü hökumətini saymır. O büstün açılışında iştirak edən deputat, prokuror, icra hakiminin soyadlarının sonluğuna nəzər yetirmək lazımdır, erməni soyadlarıdır. Onlar Gürcüstanda mübarizə aparırlar ki, Axalkalakini Ermənistanın ərazilərinə birləşdirsinlər. Ona görə də gəlin biz də Qardabanidə Mübariz İbrahimovun, Allahverdi Bağırovun, Şirin Mirzəyevin, Raqub Orucovun heykəlini qoyaq".

**A.Abbas bildirdi ki, həmin rayonda olub:** "Orada gürcü yoxdur. Bütün vəzifələrdə ermənilərdir. Necə ki, gürcülər Qardabanidə bizimilərə münasibət göstərir, oxşar münasibəti ermənilər gürcüyə göstərirlər. Bunun yeganə yolu budur ki, biz də Qardabanidə qəhrəmanlarımıza, qeyrəti oğullarımıza heykəl qoyaq. Çünki məsələ barədə Gürcüstan Xarici İşlər Nazirliyinin açıqlamasını oxudum, söz yığınından başqa bir şey deyildi".



**Aqil Abbas:** "Axalkalakidə gürcü yoxdur, vəzifələrdə ermənilərdir"

**Siyasi analitik Nəzakət Məmmədova** isə bildirdi ki, Azərbaycana qarşı təcavüzdə iştirak edən cinayətkara abidə qoyulması ilk növbədə Gürcüstanın özü üçün təhlükəlidir: "Üstəlik, separatçı Axalkalakda belə bir abidənin qoyulması, erməni millətindən olan, ancaq Gürcüstan dövlətində vəzifə tutan rəsmi şəxslərin orada iştirakı ikiqat təhlükəli və utancvericidir. Sual yaranır: orada iştirak edən ermənilərin arasında qeyd etdiyimiz kimi rəsmi vəzifəli ermənilər var. Onlar özbaşına orada abidə qoyublar, yoxsa gürcü hökumətindən icazə alıblar?! Əgər ermənilər bunu özbaşına ediblərsə, hərçənd ki, bu, inandırıcı deyil, dərhal cəzalanmalıdırlar və rəsmi Tiflis bununla hadisənin arxasında özünün dayanmadığını Azərbaycana sübut etməli, üzr istəməlidir. Çünki Gürcüstan torpağında baş verən istənilən anti-Azərbaycan, anti-türk olayına görə bu ölkənin rəsmi şəxsləri məsuliyyət daşıyır. Yox, icazəli şəkildə ediblərsə, yenə də Gürcüstan bunun izahatını Azərbaycana verməlidir. Gürcü xalqına qarşı qırğın törədən cinayətkara Azərbaycanda abidə qoyulsa, gürcülərin münasibəti necə olardısa, Azərbaycanın da eyni münasibət sərgiləməyə tam haqqı var.

**Politoloq düşünür ki, ermənilər Zurabiaşvilinin prezident seçilməsindən sonra hesab edirlər ki, əl-qolları açılıb və istədiklərini edə bilərlər:** "Lakin onlara həddini bildirmək zamanıdır. Gürcüstandakı soydaşlarımız bu barədə petisiya toplaya bilərlər. Abidə qoyulması elə-belə hadisə deyil. İrəvanda faşist, qaniçən Njdeyə abidə qoyulanda Rusiyanın münasibəti sərt olmuşdu, çünki o, sovet dövlətinə, ruslara qarşı almanlarla birləşmişdi. Xocalıda dinc əhaliyə qarşı cinayət edən Avaqyana da münasibət eyni olmalıdır. Faşizmin milləti, zamanı və məkanı yoxdur. Cavaxetiyada ermənilər bunu bir daha sübut etdilər".

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

---

# Gürcüstana necə cavab verək



**Elşad MƏMMƏDLİ**
elshad1978@gmail.com

**Qonşu sarıdan bəxtimiz gətirməyib. Tarixin heç bir mərhələsində biz coğrafi qonşularımıza bir pislik etməsək də, hər zaman onlardan xain davranışlar görmüşük...**

Ermənistan bəlli, əzəli düşmənlərimizdir. Torpaqlarımızı işğal ediblər, xalqımıza qarşı soyqırımlar törədiblər, nə pislik varsa Azərbaycana, azərbaycanlılara qarşı ediblər.

Rusiyaya, İrana, Gürcüstana ziyanımız dəyməsə də, bunun qarşılığında onlardan heç də adekvat münasibət görməmişik. Hazırda İran və Rusiya gündəm deyil, Gürcüstanın növbəti xain addımı ilə üzləşmişik, bu səbəbdən ondan danışacağıq...

Azərbaycan heç zaman Gürcüstanla konflikt yaradan addım atmayıb. Geosiyasi, regional, coğrafi mövqeyi, neft kontraktları və iqtisadi inkişafı baxımından bölgənin lider dövləti olan Azərbaycan hansısa strateji əməkdaşlıq zamanı Gürcüstan qarşısında Ermənistanla davranışlarına dair tələb, ön şərt qoymayıb. Hansı ki, həm Bakı-Tiflis-Ceyhan, həm də Gürcüstanı qoşduğumuz digər layihələrdə Azərbaycanın belə imkanları vardı. Amma biz Gürcüstana bu təzyiqləri etməmişik. Əksinə, Gürcüstan iqtisadiyyatına yatırımlar etmişik, dar günlərində enerji təchizatlarına yardım göstərmişik. Separatizmlə üz-üzə qalanda, Rusiya bombaları başlarına yağdıranda Azərbaycan bütün mümkün yaxşılıqları edib gürcülərə. "SOCAR Georgiya" Gürcüstanda minlərlə iş yeri açıb.

Üstəlik, 10 minlərlə Azərbaycan vətəndaşı hər il yay, qış tətillərində bu ölkəyə üz tutur. Azərbaycanlılar pullarını bu ölkənin iqtisadiyyatına, turizminin inkişafına xərcləyirlər. (Düzdür, burada sərfəli turizm şərtləri də rol oynayır, amma biz gərək bundan sonra bu məsələyə də milli, dövlət maraqlarımız çərçivəsindən yanaşaq.)

Bəs bütün bunların qarşılığında Gürcüstan neylədi? Azərbaycanlılara qarşı qəddarlığı, Xocalı soyqırımında iştirakı ilə tarixə düşmüş "Kobra" ləqəbli erməni cəlladının - Mixail Avaqyanın Cavaxetiyada Buqaşen kəndində abidəsinin ucaldılmasına imkan verdi.

Özü də qanlı 20 Yanvarın ildönümündə 2019-cu il yanvarın 20-də baş tutdu xain təxribat.

Regionda Azərbaycanın xeyrinə çox ciddi proseslər getdiyi, Qarabağ münaqişəsi ilə bağlı sülhdən danışıldığı bir vaxtda Gürcüstanın belə bir davranış sərgiləməsi düşündürücüdür. Burada mütləq bir pozuculuq missiyası var.

Bunu düşünməyə bir neçə amil əsas yaradır. Əvvəla, Gürcüstan prezidenti Salome Zurabişvili ermənipərəst mövqeyi tanınır. Qarabağla bağlı proseslərin işğalçı Ermənistanın əleyhinə, haqlı tərəf olan Azərbaycanın xeyrinə sürətlə irəlilədiyi bir vaxtda faktiki olaraq Gürcüstan özünün məkrli niyyətini ortaya qoymuş oldu.

İkinci amil odur ki, Cavaxetiya Tiflisə qarşı potensial separatçı ocaq kimi tanınmaqdadır. Ermənilər də bu separatçı hərəkata böyük dəstək veriblər. Bu reallıqlarla və məhz bu həssas bölgədə ermənilərə geniş meydan vermək də bir siyasi ismarıc kimi diqqətlərə hakim kəsilməyə bilmir...

Tiflis bilməmiş deyil ki, Axalkalakidə həyata keçirilən bu anti-Azərbaycan davranışı iki ölkə arasında münasibətlərə xələl gətirəcək. Amma buna göz yumublar, razılıq veriblərsə, deməli, məlum son Qarabağ proseslərində açıq-aşkar mövqe sərgiləmiş kimi görünürlər.

Bəs biz nə edək? Bu təxribata necə cavab verək?

Əlbəttə, belə bir həssas dönəmdə radikal addımlar atıb, Gürcüstanı "düşmən" elan etmək, vəziyyəti daha da dramatikləşdirmək doğru variant olmazdı. Bunun üçün sadəcə, Gürcüstana strateji əməkdaşlıq etdiyimiz layihələrdə iştirakı məsələlərinin məhz Azərbaycandan asılı olduğunu diplomatik qaydada, eyni zamanda iqtisadi terminlərlə başa salmaq lazımdır.

Digər tərəfdən həm də ona görə mümkün qədər təmkinli davranışlarla hədəfə çatmalıyıq ki, Borçalıdakı soydaşlarımıza qarşı hansısa təxribatlar törədilməsin. Ermənistan üzərində danışıqlar prosesinin Azərbaycanın xeyrinə getdiyi bir vaxtda baş verənlərin düşünülmüş təxribat olduğunun fərqinə vararaq, növbəti təxribatların baş verməməsinə, başımızın bu dəfə ona qarışmamasına çalışmalıyıq.

Və yaxşı olar ki, Azərbaycan tərəfi Borçalıda Mübariz İbrahimova, Allahverdi Bağırova və ya digər bir Qarabağ qəhrəmanımıza büst qoyulmasına nail olsun. Əgər Gürcüstan buna icazə verməzsə, o zaman lənətlik "Kobranın" abidəsinin uçurulması tələbini gündəmə gətirə bilərik.

**Biz Azərbaycan vətəndaşları olaraq Gürcüstana birlikdə dərs verməliyik. Ən azı bu ölkənin turizminə pul xərcləməyi dayandırmaqla, onların turistik bölgələrinin ac-gic ermənilərin ümidinə qalmasına çalışmalıyıq. Ürəyiniz xaricə çıxmağı lap çox istəyirsə Batumiyə, Urekiyə, Barjomiyə getməyin, oradan cəmi 150 kilometr sonra, qardaş Türkiyənin daha gözəl bölgələri - Rizə, Trabzon başlayır. Biz ora üz tutaq, Gürcüstan ermənilərə qalsın...**

# “Potensiallı kadrlar tezliklə digər qurumlarda iş tapacaqlar”

## Pərviz Heydərov: “Peşəkar kadrlar adətən özəl sektora üstünlük verirlər”

**Prezidentin fərmanları ilə Azərbaycanda başladılan struktur dəyişiklikləri zamanı xeyli sayda iş yerinin bağlanması nəzərdə tutulur. Ləğv olunan və ya başqalarına birləşdirən qurumlarda yüzlərlə işçi çalışırdı. Bu baxımdan, dəyişikliklərin reallaşması həm də iş yerlərinin bağlanması deməkdir.**

Bu amili nəzərə alaraq prezidentin yanvarın 17-də imzaladığı fərmanda struktur islahatları zamanı iş yerlərini itirən şəxslərin işlə təminatı məsələsinə də diqqət yetirilib. Qeyd olunub ki, Maliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, Qida Təhlükəsizliyi Agentliyi, Milli Arxiv İdarəsi və Dövlət İmtahan Mərkəzi ləğv olunan dövlət orqanlarında işləyən dövlət qulluqçularına münasibətdə “Dövlət qulluğu haqqında” qanunun 21.1.6-cı (dövlət orqanları ləğv edilərsə və ya ştatlar ixtisara düşərsə, vəzifə maaşına və ixtisasa uyğun işə düzəlmə və ya dövlət orqanlarında tutduğu vəzifəyə uyğun vəzifə tutmaqda üstünlük) maddəsində nəzərdə tutulmuş üstünlüyünün həyata keçirilməsi uyğun olaraq tədbirlər görməlidirlər.

Bundan əlavə, Gənclər və İdman Nazirliyinə, Təhsil Nazirliyinə, Ədliyyə Nazirliyinə, Daxili İşlər Nazirliyinə, Vergilər Nazirliyinə, Dövlət Gömrük Komitəsinə, Dövlət Miqrasiya Xidmətinə və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə ləğv olunan dövlət qurumlarında (struktur bölmələrində) işləyən işçilərin tabeliklərində olan digər qurumlarda və ya struktur bölmələrində müvafiq vakant vəzifələrə təyin edilməsi ilə bağlı tədbirlər görmək və nəticəsi barədə Prezidentə məlumat vermək tapşırılıb.


Pərviz Heydərov

İki gün əvvəl prezident bir daha bu məsələnin üstünə qayıdıb. Kənd Təsərrüfatı Nazirliyinin Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun açılışında çıxış edən ölkə rəhbəri hazırda Kənd Təsərrüfatı Nazirliyində və digər dövlət qurumlarında struktur islahatlarının aparıldığını xatırladıb: “Bu islahatların bir məqsədi var ki, biz işimizi daha da yüksək səviyyədə quraq. Onu da bildirməliyəm ki, mövcud strukturlarda, ixtisar olunan strukturlarda çalışan vətəndaşlar işlə təmin olunacaqlar. Kənd təsərrüfatında heç bir ixtisar gözlənilmir və digər strukturlara da tapşırılıb ki, islahatlar ixtisarlara gətirib çıxarmasın. Yəni o müəssisələrdə, o xidmətlərdə, agentliklərdə çalışan vətəndaşlar bilsinlər ki, onların məşğulluğu daim diqqət mərkəzindədir”.

Göründüyü kimi, struktur dəyişiklikləri nəticəsində işsiz qalacaq şəxslərin işlə təminatı üçün dövlət tərəfindən bir sıra addımlar atılacaq. Lakin aydın məsələdir ki, dövlət idarəetmə aparatındakı dəyişikliklərin bir məqsədi də büdcə vəsaitlərinə qənaət olunmasıdır. Bu baxımdan, iş yeri bağlanan hamının yenidən dövlət sektorunda işlə təmin olunması bu məqsədə nail olunması baxımından məqbul variant hesab olunmur. **İqtisadçı-ekspert Pərviz Heydərov**un “Yeni Müsavat”a dediyinə görə, dövlət idarəetmə orqanlarına dair struktur islahatları özündə həm də kadrlar üzrə təkmilləşdirməni, bu sahədə keyfiyyətin artırılmasını, daha az məsrəflə daha çox və daha böyük həcmdə işin yerinə yetirilməsinə nail olmağı ehtiva edir: “Və bu zaman, ixtisarların olması labüd xarakter daşıyır. Dövlət büdcəsi xərclərinin səmərililiyini artırmaq, həm də idarəetməni yaxşılaşdırmaq tədbirləri bundan yan keçə bilməz. Lakin bəllidir ki, ölkəmizdə işsizlik səviyyəsinin mümkün dərəcədə aşağı endirilməsi və ən aşağı həddə saxlanılması dövlətin və hökumətin sosial-iqtisadi siyasətində daimi yer tutur. Və bunun üçün bütün vasitələrdən istifadə edilir. Demək olar, bütün icra strukturları bu vəzifənin həyata keçirilməsində maraqlı sayılır və yaxından iştirak edir. Odur ki, heç də təsadüfi deyil ki, sonuncu fərmanlardan birində ləğv olunan dövlət qurumlarında (struktur bölmələrində) işləyən işçilərin tabeliklərində olan digər qurumlarda və ya struktur bölmələrində müvafiq vakant vəzifələrə təyin edilməsi ilə bağlı tədbirlər görülməsi də tapşırılmışdır. Söhbət, əlavə və yeni ştatların yaradılmasından deyil, mövcud, amma vakant büdcə üzrə iş yerlərindən gedir”.

**Ekspertin sözlərinə görə, potensiallı kadrların özlərinin belə, tezliklə digər qurumlarda iş tapacaqları aydın məsələdir:** “Dəxli yoxdur, bu, özəl iş yeri də ola bilər, yenə büdcə təşkilatı da ola bilər. Ümumiyyətlə götürdükdə isə, peşəkar kadrlar adətən, özəl sektora üstünlük verirlər. Bu, hər yerdə belədir. Bir daha qeyd edirəm ki, dövlət və qeyri-dövlət bölməsində çalışan muzdlu işçilərin sayı tədricən həm islahatlar, həm də özəl sektorun özünün intensiv inkişafı yolu ilə ikincinin xeyrinə artmalı və bu sahədə balans mütləq iqtisadi qanunlara uyğun təmin olunmalıdır. Dövlət sektorunda bacardıqca az adam işləməlidir. Bu, mükəmməl idarəetmə mexanizminin mühüm prinsiplərindəndir. Belə bir misal çəkim: indi yüksək texnologiyalı ölkələrdə ictimai nəqliyyat vasitələrinin özləri belə sürücüsüz funksiya göstərirlər. Dövlət idarəetməsi, ümumiyyətlə, iqtisadiyyatın keyfiyyəti, yəni az məsrəflə, mükəmməl və dəqiq idarəolunması tələbi də məhz belədir”.

❑ **Dünya SAKİT,**
**“Yeni Müsavat”**

# Ziya Məmmədov məşhur hotelini itirdiyini təsdiqlədi

## Sabiq nazir hotelin “nə mənə, nə də mənim oğluma heç bir aidiyyəti yoxdur” deyir




Ziya Məmmədov

**“Bunun nə mənə, nə də mənim oğluma heç bir aidiyyatı yoxdur” - sabiq nəqliyyat naziri Ziya Məmmədov ailə biznes-imperiyasına daxil olmuş “Trump Tower Baku”, sonrakı adı isə “Yelkən hotel” olan binanın əlindən alınmasına münasibət bildirərkən belə deyib.**

Azxeber.com əməkdaşının hotelin əllərindən alınması ilə bağlı sualı sabiq naziri özündən çıxarıb.

“Sökmürlər e, qoy lap partlatsınlar. Nə hotel, hotel nədir? Mən ilk dəfədir eşidirəm bunu. Boş-boş şeylərlə özünüzün də vaxtını almayın, mənim də. Hotel lap tutaq ki, kiminsə olub və söküblər? Bunun sizə nə dəxli var? Bunun nə mənə, nə də mənim oğluma heç bir aidiyyəti yoxdur” deyə, sabiq nazir bildirib.

Ziya Məmmədovun kreslosu laxlayandan sonra ailə şirkəti “Garant Holdin”qə daxil olan bir çox şirkətlər, hotel və binaları “milliləşdirilib”. Məmmədovların Bakının mərkəzində ucaltdıqları və bir vaxtlar hər kəsin Ziya Məmmədovun klanı üçün “xilas kəməri” hesab etdiyi “Trump Tower Baku” da istisna deyildi. Ziya Məmmədovun son açıqlaması bir daha əvvəllər yayılan məlumatları təsdiq etmiş oldu. Yada salaq ki, Ziya Məmmədov hakimiyyətdəki mövqelərini itirdiyi günlərdə onun oğlu Anar Məmmədovun özünə dost elan etdiyi Donald Tramp ABŞ-da prezidentliyə namizəd idi. Trampın prezident seçilməsindən sonra Azərbaycanda buna ən çox sevinən Məmmədovlar ailəsi idi. Ziya Məmmədovun karyerasının qürub etdiyi bir zamanda oğlu Anar Məmmədovun dostu Trampın supergüc dövlətin başına gəlmişdi. Belə iddialar da vardı ki, Ziya Məmmədov Trampın prezident seçilməsi şərəfinə ziyafət təşkil edib. Oğlu Anar Məmmədov da ABŞ seçkilərinin nəticəsini toy-bayrama çevirmişdi. Hətta belə xəbərlər dolaşırdı ki, Ziya Məmmədov yolunun vitse-prezidentliyə açıldığını düşünür, revanşa hazırlaşırmış. Lakin çərxi-fələk tam əksini ortaya qoydu. Tikinti maqnatı olan milyarder Donald Tramp azərbaycanlı oliqarx Anar Məmmədova görə ölkəsində kəskin tənqidə məruz qaldı, iş o yerə çatdı ki, Donald Trampın adını daşıyan dəbdəbəli hotellər şəbəkəsinin Azərbaycandakı binası üzərindən “Trump Tower Baku” sözləri söküldü. Halbuki 2014-cü ildə Tramp bəyan etmişdi ki, “Trump International Hotel & Tower Baku” “Trump Organization”un standartlarını daşıyan ən yaxşı qlobal inkişaf layihələrindən biridir. Trampın adını daşıyan binaların çoxu kimi Bakıdakı hotel də ona məxsus deyildi. Bina Məmmədovun nəzarət etdiyi “Garant Holdinq” tərəfindən tikilmişdi və onun şirkətinə məxsus idi.

**Tramp adının bu hoteldə istifadə edilməsinə və layihə ilə bağlı təcrübəsinə görə sərfəli komission haqqı olaraq 2,5 milyon dollar alıb. Yayılan maliyyə sənədlərindən məlum olurdu ki, Anar Məmmədovun hotelini idarə etmək üçün “THC Baku Hotel Manager Services LLC”, “THC Baku Hotel Manager Services Member Corp.” , “THC Baku Services LLC” və “THC Baku Services Member Corp.” adlı şirkətlər təsis edilib. Həmin şirkətlərin ikisində Donald Tramp 100 faiz, ikisində isə 99 faiz paya malikdir. Hotelin Trampın dəbdəbəli hotellər zəncirinin bir hissəsi kimi idarə olunacağı haqda da xəbərlər vardı. Amma bu baş vermədi. Hoteldən “Trump Tower Baku” sözləri söküləndən sonra Ziya Məmmədovun rəhbərlik etdiyi nazirlik də yenidən təşkil edildi. Ziya Məmmədov isə işsiz qaldı.**

❑ **E.HÜSEYNOV,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 19 (7189) 26 yanvar 2019

**Azərbaycan məhkəmələrindən keçən vəzifə sahiblərin sayı itib. Bu çoxluqda nəzərə çarpan iradəni nümayiş etdirən sabiq səhiyyə naziri Əli İnsanovdur. Yaşının çoxluğu, ətrafına təzyiqlərin şiddəti də sabiq naziri geri çəkilməsinə səbəb olmur. İnsanov ən azı neytral mövqe tutub vəziyyətdən çıxmağa da çalışmır, Tağı Əhmədov demişkən "burcutmur". Hazırda 11 saylı ciddi rejimli cəzaçəkmə müəssisəsində cəza çəkən 73 yaşlı Əli İnsanov 2005-ci ilin oktyabrından həbsdədir.**

# Sabiq deputatla nazirin həbs həyatı - İnsanov geri çəkilmir, "Quska" susur...

## Hazırda 11 saylı ciddi rejimli cəzaçəkmə müəssisəsində cəza çəkən 73 yaşlı Əli İnsanov və Hüseyn Abdullayev haqda son xəbərlər


Əli İnsanov


Hüseyn Abdullayev

**Dövlət çevrilişinə cəhd ittihamı ilə həbs olunan Əli İnsanova qarşı sonradan iqtisadi sahədə cinayətkarlıqla əlaqəli ittiham irəli sürülüb.** 2007-ci ilin aprel ayında məhkəmə Əli İnsanovun əmlakı müsadirə olunmaqla 11 il müddətinə azadlıqdan məhrum olunması barədə qərar çıxarıb. 2016-cı il avqustun 24-də, yeni azadlığa çıxmasına 2 ay qalmış Qaradağ Rayon Prokurorluğu tərəfindən Əli İnsanova Cinayət Məcəlləsinin 315.2 (hakimiyyət nümayəndəsinə zor tətbiq etmə) , 234.1 (satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə) və 317-2.1-ci (cəzaçəkmə müəssisələrində qadağan olunmuş əşyaların hazırlanması, saxlanılması və istifadəsi) maddələri ilə yeni ittihamlar elan edilib. Qaradağ Rayon Məhkəməsi 2016-cı il oktyabrın 11-də, yeni köhnə cəzasının bitiməsinə bir həftə qalmış sabiq nazir barəsində 3 ay müddətinə həbs-qətimkan tədbiri seçib, sonradan bu müddət bir neçə dəfə uzadılıb. 2017-ci il aprelin 26-da hakim Rəşad Mustafayevin sədrliyi ilə Qaradağ Rayon Məhkəməsində bu ittihamlar üzrə proses yekunlaşıb. Ə.İnsanov növbəti dəfə 7 il 5 gün müddətinə azadlıqdan məhrum edilib.

2013-cü il martın 14-də Avropa İnsan Hüquqları Məhkəməsi Ə.İnsanovun ədalətsiz mühakimə olunması barədə qərar çıxarıb. Ancaq Azərbaycan hakimiyyəti hökmü dəyişməyib. Avropa Şurası Nazirlər Komitəsi Azərbaycan hökumətini Avropa Məhkəməsinin qərarını yerinə yetirməyə çağırıb. Hüquq-müdafiə təşkilatları Ə.İnsanovu "siyasi məhbus" kimi tanıyıb.

**Azərbaycan məhbəsində günlərini sayanlardan biri də sabiq deputat Hüseyn Abdullayevdir.** Ötən ilin aprelində Türkiyədə saxlanılaraq Azərbaycana təhvil verilən Hüseyn Abdullayevə bağlı istintaq araşdırmaları bu gün də davam edir. Yaxınlarda sabiq deputatın cinayət işi üzrə materiallar məhkəməyə göndəriləcəyi haqda məlumatlar yayılıb. Bu, Hüseyn Abdullayevin ilk həbsi deyil. 2007-ci ildə o, parlamentin iclasında deputat Fəzail Ağamalı ilə əlbəyaxa davaya çıxıb. Sonradan Hüseyn Abdullayev Fəzail Ağamalının hüquq-mühafizə orqanlarına müraciəti əsasında saxlanılıb, məhkəmə onun 2 il müddətində azadlıqdan məhrum edilməsi ilə bağlı qərar qəbul edib. Abdullayev barəsində Cinayət Məcəlləsinin 70-ci maddəsi tətbiq olunmaqla təyin edilmiş cəza şərti hesab edilib və barəsində 2 il sınaq müddəti müəyyən olunub və o, məhkəmə zalından azadlığa buraxılıb. Azadlığa çıxandan sonra ölkəni tərk edən Hüseyn Abdullayev Almaniyadan siyasi sığınacaq, bu ölkənin verdiyi xüsusi pasport alıb. Onun həmin pasporta arxayın olub Azərbaycan hakimiyyətinə qarşı çıxışları barəsində yeni cinayət işinin başlanması, Türkiyədə həbs olunaraq əliqandallı Bakıya gətirilməsi ilə nəticələnib. Həmin dövrdən sonra Hüseyn Abdullayev daha çox susmağa üstünlük verir.

**Bu arada Hüseyn Abdullayevlə Azərbaycanda vəzifədə olan məmur və deputatlarla bağlı araşdırılma aparılması haqda da xəbərlər yayılıb.** Bildirilir ki, Hüseyn Abdullayevlə bəzi deputatların, onların övladlarının əlaqələri haqda da dolaşan məlumatlar araşdırma predmetidir, deputatların, məmurların qeyri-rəsmi sorğulanması xəbərləri də var. Hüseyn Abdullayev həbs ediləndən sonra belə xəbərlər yayılmışdı ki, o, Azərbaycandan mühacirət edəndən sonra ən müxtəlif adlarla yanına gedib-gələn vəzifə sahibləri, onların yaxınları, hətta övladları olub...

**Hüseyn Abdullayev hazırda Bakı İstintaq Təcridxanasında saxlanılır.** Onun həbsi ilə bağlı Vergilər, Daxili İşlər nazirlikləri və Baş Prokurorluğun mətbuat xidmətləri onun həbsi ilə bağlı birgə məlumat yayıb. Vergilər Nazirliyi tərəfindən aparılmış səyyar vergi yoxlaması nəticəsində "Araz İNC" MMC-nin 1 milyon 436 min manat məbləğində vəsaiti dövlət büdcəsinə ödənməməsi faktı üzrə 7 iyun 2013-cü il tarixdə Cinayət Məcəlləsinin 213.2.2-ci (vergi ödəməkdən yayınma) maddəsi ilə cinayət işi başlanıb. 3 oktyabr 2016-cı il tarixdə H.Abdullayevin ümumilikdə 1 milyon 810 min manat məbləğində vergiləri dövlət büdcəsinə ödəməkdən yayındırması və xüsusi razılıq (lisenziya) tələb olunduğu halda belə razılıq almadan tikinti-quraşdırma işlərini həyata keçirərək 966 min manat məbləğində gəlir əldə etməsinə əsaslı şübhələr müəyyən edildiyindən ona Cinayət Məcəlləsinin 192.2.2 (qanunsuz sahibkarlıq) və 213.2.2-ci maddələri ilə yenidən ittiham elan edilməsi barədə qərar çıxarılmışdır. Bundan başqa, ayrı-ayrı vətəndaşların Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə daxil olmuş müraciətləri əsasında 14 fevral 2018-ci il tarixdə başlanmış cinayət işi üzrə H.Abdullayevin 2006-cı ildən 2018-ci ilədək olan müddət ərzində faktiki nəzarət etdiyi "Araz-İnşaat" ASC-də onun tapşırığına əsasən müəssisənin idarə olunmasını həyata keçirən Babayev Namiq İsmixan oğlu və qeyriləri ilə qabaqcadan əlbir olan bir qrup şəxs halında cəmiyyətə məxsus obyektləri müxtəlif vaxtlarda ayrı-ayrı şirkətlərə icarəyə verərək ümumilikdə 1 milyon 374 min manat məbləğində gəlirlərin cəmiyyətin kommunal xidmət və sair xərclərinin ödənilməsinə sərf olunmasına dair digər səhmdarlara yalan məlumat verməklə 13 min 373 manat məbləğində dividentləri vahid qəsdlə ələ keçirib zərərçəkmiş şəxslərə xeyli miqdarda maddi ziyan vurmaqla dələduzluq etməsinə şübhələr müəyyən edilib. Eləcə də H.Abdullayevin dəfələrlə N.Babayev vasitəsilə, daha sonra isə Almaniyadan istifadəsində olan telefondan "Autist Uşaqların Reablitasiyasına Kömək" İctimai Birliyinin sədri Elnur Məmmədova zəng edərək onun və ailə üzvlərinin ünvanına nalayiq ifadələr işlədib tələblərinə əməl etməyəcəyi halda onları məhv edəcəyi ilə hədələyərək icarə müqavilesi şərtlərinə görə hər ay ödəməli olduğu 3 min manat icarə haqqı əvəzinə onun nümayəndələrinə 6 min manat pul ödəməsini hədə-qorxu ilə tələb etməsinə əsaslı şübhələr müəyyən edildiyindən o, Cinayət Məcəlləsinin 178.2.1 (dələduzluq), 178.2.2, 178.2.4, 182.2.1 (hədə-qorxu ilə tələb etmə), 182.2.2 və 182.2.4-cü maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə həmin maddələrdə nəzərdə tutulmuş ittiham elan edilib.

❑ **E.HÜSEYNOV, "Yeni Müsavat"**

# Acın qılınca çapdığı uzaq məmləkət



**Xalid KAZIMLI**

**Bu yazını oxuyanların çoxu, yəqin ki, yazıçı Harriyet Biçer-Stounun dünyaca məşhur "Tom dayının daxması" romanını oxuyub.**

O romanda, eləcə də o səpkidə yazılmış digər əsərlərdə (məsələn, Solomon Nortapın "12 illik köləlik" avtobioqrafik romanında) söhbət quldarlıq və köləliyin yaratdığı dəhşətli durumdan bəhs olunur.

Çox yox, cəmi 150-200 il öncə Amerika Birləşmiş Ştatlarında baş verən hadisələr barədə olduqca gerçəkçi bir qələmlə yazılmış əsərləri oxuyanda insan oğlunun zülmünün hüdudsuz olmasını anlayırsan.

İndi dünyaya insan haqlarına və demokratiyaya dair dərs keçməklə deyil, ABŞ-ın özünün yaxın tarixi insanın insana edə biləcəyi hər zülm-zillətlə, haqsızlıq və ədalətsizliklə doludur.

Amma bu yazıda söhbət ondan getmir, dünyanın bugünkü duruma çatmasında zülmə, zülmkara qarşı etirazların həlledici rolundan gedir.

1861-65-ci illərdə ABŞ-da vətəndaş müharibəsi baş verməsəydi, bu ölkədəki quldarlıq quruluşunun, insanın insanı kölə, iş heyvanı kimi işlədib istismar etməsinin ömrü daha 40-50 il uzana bilərdi.

Çünki bu ölkənin cənub ştatları quldarlığın (zülmün) davam etməsini istəyir, hətta təkcə istəməklə də qalmır, ondan ötrü silaha sarılıb vuruşurdular. Azad yaşamaq istəyən qaradərililər isə başqa cür düşünürdülər.

Bu qızıl qaydadır, zülmə etiraz edilmədikcə, müti olduqca zülm davam edir, zülmkar öz zalımlığından əl çəkmir, məzlum isə əzilə-əzilə gedir.

Bu gün Venesuelada baş verən hadisələrə bir də bu prizmadan baxmaq lazımdır.

Lap ortada "Amerikanın barmağı" olsa da, gerçək mənzərə budur: Venesuela xalqı zülm-zillət içindədir, acdır, işsizdir, yoxsuldur və o öz durumu ilə barışmır, onu bu günə qoyanlara etiraz edir.

Gerisi təfərrüatdır. Xalq öz halından, maddi durumundan məmnun olsa, bu qədər kütləviliklə və qətiyyətlə etiraz aksiyalarına qatılmazdı.

Başqa sözlə, Venesuelada gedən siyasi qovğa heç də demokratiya uğrunda mübarizə deyil, aclıqla, yoxsulluqla mübarizədir, yaşamaq uğrunda aparılan mücadilədir.

Venesuela xalqının qarnı tox olsaydı, sabaha inam bəsləsəydi, belə olmazdı. Necə ki, maddi rifah halı yüksək olan diktatura yuvalarında demokratiya və insan haqlarının bərbad durumu xalqı tərpətmir.

Məsələn, Venesuelada olan azadlıq və demokratiyanın onda biri Səudiyyə Ərəbistanında, Qətərdə, Küveytdə və sair bu kimi ölkələrdə yoxdur, amma xalqın qarnı toxdur deyə susur, mövcud duruma uyğunlaşaraq yaşayır.

O ölkələrdə kasıbçılıq olsaydı, onlar da bu və ya digər şəkildə ayaqlanardı. Dünyanın ən sərt diktatura rejimlərindən biri olan Zimbabvedəki son hərəkətlənmələr də məhz yoxsulluğun, zülmün nəticəsində ortaya çıxıb.

Son illər dəb düşüb: hansısa ölkədə inqilab baş verirsə, mütləq bir çoxları sərt şəkildə anti-inqilabi yazılar (məqalələr, statuslar) yazır, müsahibələr verirlər, həmin inqilabın o xalqı xoşbəxt etməyəcəyini əminliklə bildirirlər.

Onların sözlərində həqiqət payı var. Doğrudan da dünyanın ən böyük inqilablarından olan bolşevik inqilabı SSRİ xalqlarını xoşbəxt etmədi, əksinə, bir neçə yüz milyon insanın bədbəxtliyinə səbəb oldu və beləliklə, inqilab ideyası gözdən düşdü.

Son illər ərəb ölkələrində baş verən inqilabların acı, dəhşətli nəticələri də xalqların bu yolla xoşbəxtliyə vara bilmədikləri, hətta daha faciəvi durumlara düşdüyü reallığını ortaya qoydu. Demokratiyaya hazır olmayan xalqların öz durumlarını inqilabi yolla dəyişməyə çalışması milyonlara insana faciə yaşatdı.

Bəs elə bir barometr varmı ki, o hansı xalqın demokratiyaya hazır olduğunu, hansının hazır olmadığını göstərsin. Belə bir cihaz yoxdur. Sadəcə, bunu həmin ölkənin siyasi arenasında, mediasında gedən müzakirələrdən, ayrı-ayrı siyasi qüvvələrin bir-birinə, eləcə də demokratiya və təməl insan haqlarına münasibətindən anlamaq olar.

Əgər iqtidar və müxalifət qüvvələri arasındakı mübarizədə həlledici rıçaq zorakılığa söykənirsə (biri əlində imkan var, repressiya edir, biri də o imkan qazacağı halda repressiya edəcəyi ilə hədələyir), deməк, umulan nəticə əldə olunmayacaq.

**Venesuelada isə hələ qarışıqlıqdır... Ölkənin prezident kimi tanınan parlament sədri Quaydo devrilməkdə olan prezident Maduro və komandasının əfv ediləcəyini bəyan edib. O, sözünü tutarsa, zamanla hər şey yaxşı olacaq, vədinə xilaf çıxarsa, bu, yeni avtoritar rejimin bərqərarı deməkdir. Tərəflər bir-birinə inanmasa, güzəştə getməsə, vətəndaş müharibəsi qaçılmazdır.**

YENİ MÜSAVAT
N 19 (7189) 26 yanvar 2019



# Ekranda titrəyiş

Zamin HACI
zaminhaci@gmail.com

"Uzağa getməyək, götürək elə AzTV-ni"
*(yapon səfiri Masamitsu Oki)*

**Ola bilsin hörmətli oxucularımızın bəziləri epiqraf verdiyim cümlənin mənasından, respublikamızın dinamik inkişafı üçün əhəmiyyətindən xəbərsizdir, onlar üçün xırda aydınlatma edək. AzTV kanalında vaxtilə bir İbrahim müəllim çalışırdı, onun məşhur söhbəti məhz belə olmuşdu: "Uzağa getməyək, götürək elə qonşumuz Yaponiyanı". İbrahim müəllim bir də "Almaniya dağılır" cümləsiylə tanınırdı. Heyf onu idarədən nakam atdılar, deyirdilər qardaşımız Alişanovun ayağının altını bala-bala qazırmış, yerinə keçmək istəyirmiş. İndi isə Alışanovun özünü bayıra atıblar. Necə deyərlər, İbrahim müəllimə qalmayan kanal, Arif müəllimə də qalmadı.**

Hazırda AzTV-də çox böyük islahatlar aparılır, bu isə bizi narahat etməyə bilməz, sevimli kanalımızda nə olduğunu düşünürük. Məncə, ən sevimli kanal ən az baxdığın kanaldır. Bu haqda Kafkanın bir maraqlı pritçası var, deyir Poseydon dəniz allahı idi, ancaq heç vaxt dənizi görməmişdi. Doğrudan, daim içində yaşadığın şeyi görmək üçün gərək ona qıraqdan baxasan. Bizim qıraqdan baxmaq şansımız yoxdur ki. Biz burda ölməyə məhkumuq - yenə Kafka müəllim demişkən. Bu məqamda bir alman səfirinin söhbəti yadıma düşdü, yəqin Kafkanın almandili olmasına görədir. Səfir 90-cı illərdə Bakıda işləmişdi, bir gün qəzetimizə qonaq gəlib intervü verəndə belə maraqlı söhbət eləmişdi: "Türkmənistana getmişdim, qayıdanda gəmi ilə Bakıya gəldim. Dənizdən baxanda ilk olaraq AzTV-nin qülləsini gördüm, qanım qaraldı". Əcaib diplomat idi, heç düşünmədi bəlkə bizim xətrimizə dəyər, sevimli kanalımızı görəndə sənin qanın niyə qaralsın? Əlbəttə, xaricdən maliyyələşən nemes balası nemes idi, üstünü vurmadıq.

Uzun sözün qısası, bizim ölkəyə hardan yaxınlaşsan, o cümlədən, hara tərəf uzaqlaşsan həmişə ilk və son olaraq görəcəyin zad AzTV-nin qülləsi, onun türmə projektorları kimi ətrafda dolaşan işıqları olacaqdır. Sözgəlişi, mənim bir oxucum da var idi, Kanadada yaşayırdı, deyirdi internetdə AzTV-yə baxıb vətən həsrəti çəkir, ağlayır. Təsəvvür elə. Qürbət insanın sağlamlığına necə ziyanlar vura bilirmiş. Kanadada AzTV-yə baxmaq, hardasa Yupiterə uçan kosmik gəmidə Baloğlanın "Ay uçan quşlar" mahnısını dinləmək kimi bir şeydir. Yəqin ki. İnşallah, kosmik dövlətimizin qüdrəti artsın, uçanda onu da əminliklə, qətiyyətlə deyə biləcəyik! Süleyman Rüstəm bu tə-mada uzaqgörənliklə yazmışdı: "Layka göydə edir ham-ham, Mən yerdə alıram ilham". (Əgər yazı-pozu ilahəsi varsa, bir yazıda Kafka və Süleyman Rüstəmdən sitat gətirdiyim üçün mən sabaha sağ çıxmamalıyam).

Harda qalmışdıq? Hə, AzTV-də baş verən zəlzələ, sarsıntılar temasında. Müdir Alışanovu vəzifədən atıb yerinə bir cavan oğlan qoyublar, bu cavan da dayanmadan idarəni təmizləyir, sanki Herakldır, çar Avgi-nin tövləsinə giribdir. Neçə müdir, müxbir işdən atılıbdır. Dəli şeytan deyir AzTV-də kadr çatlarının yaranmasına Bayıl yamacındakı sürüşmə təsir elədi - çatın ucu uzanıb gedib indi idarəyə giribdir. Hər nədəndirsə, AzTV yarandığı gündən bu cür təlatüm görməyibdir. Təsəvvür elə, müdiri nə təhər işdən qovublarsa bu, papkasını qoltuğuna vurub darvazadan çıxmamış arvadı boşanma ərizəsi veribdir. Dəhşətdir. Hamı bir-birindən üz döndərir. Deyir bu dəqiqə AzTV-nin içində hamı yarpaq kimi titrəyir. Bunu efirdə də hiss eləmək olur, "Günün ekranı" verilişinə axşam baxanda diktorun büzüşüb küncə qısıldığını, kadrların isə Parkinson xəstəliyi tutmuş kimi əsdiyini müşahidə etmək mümkündür.

Hətta AzTV-nin bir neçə xarici bürosunu bağlayıblar! Və bunların içində Yaponiya, Almaniya büroları da vardır! Bəs indi orda əməkdaşlar Yaponiyanı necə götürəcəklər, Almaniyanın dağıldığını bizə nə cür çatdıracaqlar? Çətindir. Ancaq lazımdır. Vətən tələb edir. Qoy millətdə ruh yaşasın.

**Hər halda, biz ümid edirik kadr islahatları sevimli telekanalımızın ana xəttində böyük dəyişiklik etməyəcəkdir. Onsuz baxmağa bir şey qalmayıbdır, bu da dəyişsə vay millətin halına.**

**Son vaxtlar Qarabağ danışıqlarında Qərbin aktivliyinin artması müşahidə edilir. Azərbaycan və Ermənistan prezidentləri arasında Davosda saat yarım çəkən görüş, bundan bir həftə qabaq Parisdə iki ölkə XİN rəhbərlərinin 4 saatlıq görüşü və görüşün yekununda "xalqları sülhə hazırlamağın zəruriliyi" barədə verilən bəyanat bu qənaəti möhkəmlədir.**

1998-ci ildə məhz Qarabağ ixtilafının mərhələli həllini, Dağlıq Qarabağın yekun statusunun isə sonraya saxlanmasını nəzərdə tutan nizamlama planı Ermənistanın Azərbaycan və Türkiyə münasibətlərinin normallaşması, deməli, Dağlıq Qarabağ məsələsində mühüm irəliləyişin olması labüddür.

# "ABŞ Əliyev-Paşinyan görüşünü hazırlayır" - sensasion iddia

## Qarabağ danışıqları üzərindən "sirr pərdəsi" götürülür; okeanın o tayından İrəvana mühüm ismarış: Trampın köməkçisi ümid edir ki...; **rusiyalı politoloq:** "Martda Bakı və İrəvan arasında anlaşma imzalanacaq..."




**Əslində keçən ilin noyabrında Düşənbədə baş tutan Əliyev-Paşinyan görüşü də Moskvanın təşəbbüsü yox, bilavasitə ölkə rəhbərlərinin özlərinin iradəsi ilə reallaşan təmas idi. Hələ ki, Rusiyadan nizamlama yönündə ciddi hərəkətlilik müşahidə olunmur.**

Dağlıq Qarabağ məsələsi ətrafında müşahidə edilən belə bir pozitiv dinamika söyləməyə əsas verir ki, ABŞ və Avropanın timsalında münaqişənin dinc həlli üçün təşəbbüslərdə artma meyli var. Bu təşəbbüslərin uğurlu olacağı isə əlbəttə ki, Rusiyanın da mövqeyindən, Kremlin bu prosesə nə dərəcədə qısqanc yanaşacağından asılı olacaq.

*****

Rusiyalı politoloq, az öncə Ermənistanın iyunda bir neçə rayonu Azərbaycana qaytaracağını bildirən Stanislav Tarasov isə martda Qərb paytaxtlarının birində Əliyev-Paşinyan görüşünün baş tutacağını iddia edib. "Yeni Müsavat"ın məlumatına görə, bu barədə o, dünən 1 in.am erməni portalına açıqlamasında deyib.

"Gəlin bir məsələyə diqqət edək: Əliyevlə Paşinyan saat yarım danışıblar. Bundan qabaq Məmmədyarov və Mnatsakanyan 4 saat söhbət edibləر. Üst-üstə 5 saat yarım edir. Sual yaranır: bu müddətdə nərd oynamaq, erməni konyakı və Azərbaycan çayı içmək olar. Bəs nə haqda onlar danışıblar?", - deyə o maraqla sual edib.

**Sözünə davam edən rusiyalı ekspert deyib:** "Belə çıxır, konkret müzakirə predmeti olub. Hansı? Heç kim bilməyir. Ancaq Azərbaycan heç vaxt Paşinyanla bu səviyyədə təmasa razı olmazdı və İlham Əliyev belə məmnun görünməzdi (birgə foto nəzərdə tutulur - "YM"), əgər Ermənistandan hansısa məqbul cavab almasaydı. Təxminən martda xarici işlər nazirləri ən yüksək səviyyədə görüşü hazırlayacaq. İndi isə belə bir sual yaranır: Əliyev və Paşinyan harada görüşəcək? Moskvada? Düşünmürəm. Parisdə? Ola bilər. Londonda? Az ehtimallıdır. Vaşinqtonda? Mümkündür".

Öz növbəsində başqa bir rusiyalı politoloq, Kremlə yaxın şəxslərdən sayılan Modest Kolerov "Joxovurd" qəzetinə bildirib ki, Azərbaycanla Ermənistan martda Qarabağla bağlı razılaşma imzalaya bilər (axar.az). Politoloqun sözlərinə görə, tərəflər arasında razılaşma çoxdan mövcuddur, sadəcə, həmin sənədlərə yekun imza həmin tarixdə atılacaq...

*****

Bu arada ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Bolton özünün twitter səhifəsində özü ilə Davosda olan Paşinyan arasında baş tutmuş telefon söhbətinə aydınlıq gətirib. "Dünən (yanvarın 23-də) mən Ermənistanın baş nazirinə zəng elədim ki, onu təzədən baş nazir təyin edilməsi münasibətilə təbrik edim və erməni xalqını azad və ədalətli seçkilər münasibətilə salamlayım. ABŞ Paşinyanın Ermənistanın rifahlı gələcəyi yönündə səylərini dəstəkləyir" - **Bolton yazıb.**

Qeyd edək ki, bu zəng İlham Əliyevlə Nikol Paşinyan arasında Davosda baş tutan görüşün (22 yanvar) ertəsi gününə təsadüf edib. Maraqlıdır ki, erməni nəşrlərindən olan "Past" qəzeti yazıb ki, Əliyevlə görüşdən qabaq Paşinyan eks-prezident Levon Ter-Petrosyana zəng edərək, ondan bəzi məsləhətlər alıb.

**Nikol Paşinyan vaxtilə Ter-Petrosyanla eyni siyasi təşkilatda olub və onun konfliktin həllinə baxışlarını bölüşüb.** O da məlumdur ki, Ermənistanın birinci prezidenti nına razılıq verdiyi üçün Moskvaya bağlı Qarabağ klanı tərəfindən - ovaxtkı baş nazir Robert Köçəryan (hazırda həbsdədir) və tərəfdarları tərəfindən devrilib. Yəni bilavasitə Kremlin qəzəbinə tuş gəlib.

**Əgər Ter-Petrosyan gizli qərbpərəst idisə (onun həyat yoldaşı yəhudidir), Nikol Paşinyan Qərbə simpatiyasını, Ermənistanın Qərbə doğru inteqrasiyasında maraqlı olduğunu gizlətmir. O ayrı məsələ ki, buna onun siyasi səriştəsi və iradəsi çatacaqmı?**

*****

Təbii ki, ABŞ da bunun fərqindədir. Lakin okeanın o tayında da onun da fəqrindədirlər ki, Ermənistanın inkişafı, Qərbə inteqrasiyası qonşu Azərbaycan və Türkiyə ilə birlikdə, onlarla münasibətlər normallaşacağı halda mümkündür. Bu isə Dağlıq Qarabağ probleminin həllindən keçir - nə barədə ki, həm Con Bolton ötən il bölgəyə, o cümlədən Ermənistana səfəri zamanı açıq bəyan eləmişdi, həm də ABŞ prezidenti Donald Tramp Paşinyana bu günlərdə göndərdiyi təbrik məktubunda birmənalı mesaj yer alıb.

İstisna deyil və Boltonun Əliyev-Paşinyan görüşündən dərhal sonra Paşinyana telefon açması da göstərir ki, Vaşinqton nəhayət, bölgədəki yeni və həssas reallıqları nəzərə alaraq və Rusiya ilə kəskinləşən münasibətlər fonunda Güney Qafqaz uğrunda həlledici mübarizəyə qərar verə bilər. Bundan ötrü əlbəttə ki,

**Məsələ ondadır ki, Barak Obama administrasiyası 8 ildə heç bir ciddi Qarabağ təşəbbüsü göstərmədi.** Tutaq ki, Azərbaycan və Ermənistan prezidentlərini Vaşinqtonda görüşdürmədi. Amma Tramp dönəmində bu ideyanın reallaşması mümkündür. Belə bir görüş indi həm də Ermənistandakı yeni siyasi gerçəklik və Qarabağ ətrafında müharibə riskinin artması diktə edir.

Sözsüz ki, Moskva buna müqavimət göstərməyə, hansısa alternativlər ortaya atmağa çalışacaq. Ancaq gerçək budur ki, Rusiya əlində bunca unikal rıçaqlar ola-ola, on illərdir konfliktin həllinə maraq göstərmir. Əksinə, "işıq gələn" deşikləri dərhal tutur. Levon Ter-Petrosyanın siyasi taleyini xatırlatdıq. 1999-cu il oktyabrın 27-də isə Ermənistan parlamenti gülləbaran edildi və Putinin dostu, ovaxtkı prezident Köçəryana real alternativ fiqurlar olan baş nazir Vazgen Sərkisyan və parlamentin spikeri Karen Dəmirçiyan da daxil, 8 nəfər güllələnərək öldürüldü. Ən önəmlisi, həmin tarixdən az sonra ATƏT-in İstanbul sammitində ABŞ-ən birbaşa patronajlığı ilə Azərbaycanla Ermənistan arasında mühüm anlaşanın imzalanması gözlənilirdi...

**Bəs bu dəfə Vaşinqton Moskvanın iradəsini qırıb, planlarını poza biləcəkmi?**

**❑ "Yeni Müsavat"ın analitik xidməti**

YENİ MÜSAVAT
N 19 (7189) 26 yanvar 2019

**Azərbaycan prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasındakı Davos görüşündən sonra Qarabağ məsələsi ilə bağlı çox uzaqgedən nəticələr çıxarılmaqdadır. Son aylarda artıq üçüncü dəfədir Azərbaycan prezidenti ilə görüşən N.Paşinyana qarşı etirazların ciddi şəkildə artması da müşahidə olunur. Ayrı-ayrı erməni ekspertləri siyasi təcrübəsi az olan Paşinyanın qısa müddətdə öz prinsiplərindən geri çəkilməsindən ehtiyatlanaraq, bu minvalla onun işğal altındakı torpaqları azad edəcəyindən əndişələnirlər.**



# Rusiyalı ekspertlər Qarabağla bağlı nikbin açıqlamalar yayır - səbəb

## Azərbaycanlı ekspertlər isə ehtiyatlı nikbinliyin tərəfdarıdır, çünki...

**Ermənistan baş naziri Nikol Paşinyan** Qarabağ məsələsinin həlli ilə əlaqədar Azərbaycan prezidenti yerinə eks-prezident Serj Sərkisyan və ya keçmiş xarici işlər naziri Edvard Nalbəndyanla konsultasiyalar aparmalıdır. Bunu "Sputnik Ermənistan"a açıqlamasında Ermənistanın Respublikaçılar Partiyasının sədr müavini Armen Aşotyan deyib. Onun sözlərinə görə, yeni hökumət mütəmadi olaraq Qarabağın həlliylə bağlı təhlükələrin dərinləşməsi üçün imkan yaradır. O, Paşinyanın Qarabağ məsələsindən daxili siyasi manipulyasiya üçün istifadə etdiyini deyib: "Biz Paşinyanı sui-qəsddə ittiham etmirik, amma aydındır ki, onun yetərli informasiya və təcrübəsi yoxdur. Müxalif barabanlarla xarici siyasət aparılmır, Qarabağın həlli isə bilik və geniş siyasi konsolidasiya istəyir. Paşinyan daimi olaraq məharətlə Qarabağ danışıqların indiki mərhələsiylə bağlı danışıqlardan qaçır" (axar.az).

**Qeyd edək ki, Nikol Paşinyanın Qarabağla bağlı Davosda prezident İlham Əliyevlə qeyri-rəsmi görüşündən sonra "Qarabağ klanı" bundan öz məqsədləri üçün sui-istifadə etməyə girişib.** Ölkə daxilində Azərbaycanın işğal edilən rayonlarının qaytarılacağı ilə bağlı məlumat yaymaqla, "Qarabağ klanı" siyasi mübarizə aparır və 20 il müddətində hakimiyyətdə qalmalarına səbəb olan "kart"ı yenidən işə salır. Çünki bu klanın Qarabağ spekulyasiyasından başqa verə biləcəyi heç bir vəd yoxdur. Yanvarın 25-də Azərbaycanın işğal edilmiş Xankəndi şəhərində keçirilən Daşnaksütyun Partiyasının ümumi iclası başa çatıb. Virtualaz.org yerli KİV-ə istinadən bildirir ki, iclas zamanı Daşnaksütyunun ali icraedici orqanı olan Büronun yeni üzvləri seçilib. Daşnakların qərarına əsasən, Büronun yeni rəsmi nümayəndəsi Yakov Ter-Xaçatryan olub. Büronun rəhbəri vəzifəsinə isə Armen Rüstəmyan təyin edilib. Daşnaksütyun iclasdan sonra bəyanat da yayıb. Bəyanatda Ermənistan və qondarma Qarabağ rejimi arasında təcili olaraq "hərbi-siyasi ittifaq" haqqında razılaşmanın bağlanılması tələb edilib. Bundan başqa, Qarabağdakı separatçı rejimə sosial-iqtisadi, təhlükəsizlik barədə dəstək verilməsi istənilib. Daşnaklar həmçinin İrəvanın Qarabağla bağlı apardığı danışıqlarla əlaqədar iki tələb irəli sürüb: danışıqlarda separatçı rejimin tam təmsil olunması və Ermənistan hökumətinin beynəlxalq platformalarda Qarabağın təhlükəsizliyinin və "müstəqilliyinin" qarantı öhdəliyi ilə çıxış etməsi.

"Paşinyan isə artıq Azərbaycan prezidenti ilə üçüncü dəfədir görüşməklə danışıqlar formatının dəyişilməzliiyi barədə rəsmi Bakının mövqeyinə tabe olduğunu etiraf etmiş olub. Münaqişənin nizama salınmasında Rusiyanın rolu azaldılıb. Əvvəl "Lavrov planı" haqqında danışılırdısa, indi "Bolton" planından söhbət gedir". Publika.az-ın məlumatına görə, bu fikirlər Ermənistanın "Yerkramas" nəşrində dərc olunan "Böyük oyunun kiçik detalı" başlıqlı məqalədə qeyd edilib. Bildirilir ki, "Lavrov planı" adlanan həll variantı ərazilərin qayıdışı (ilkin mərhələdə Qarabağ ətrafındakı 5, daha sonra 2 rayonun qaytarılması - red.), tərəflərin status üzərində müzakirələr aparması və sülhməramlıların Dağlıq Qarabağa yerləşdirilməsini nəzərdə tuturdu. Lakin nəşrə görə, indi danışıqlar prosesi "Bolton planı" ilə nəzərdə tutulmuş ssenari üzrə gedir və bu plan "sülhə əvəz olaraq ərazilər" düsturu üzrə həyata keçirilir. "Bolton planı"nda Dağlıq Qarabağın müstəqil statusu nəzərdə tutulmur, çünki, plan onun Azərbaycan tərkibində olmasına hesablanıb, sülhməramlılar yoxdur və yalnız sülh ilə pul vədi var", - nəşr iddia edib.

Nəşr hesab edir ki, yanvarın 16-da həmsədrlərin vasitəçiliyi vaxtı Parisdə Azərbaycan və Azərbaycanın xarici işlər nazirlərinin 4 saatdan çox sürən danışıqlardan sonra verilən "xalqların sülhə hazırlanması" bəyanatı, Avropa İttifaqının xarici əlaqələr üzrə komissarı Federiki Moqereninin yanvarın 19-da Azərbaycan və Ermənistan arasında əldə olunmuş razılaşmanın reallaşacağına ümid ifadə etməsi, elə həmin gün ABŞ prezidenti Donald Trampın Paşinyananı Dağlıq Qarabağ problemini həll etməyə yenidən çağırması, yanvarın 22-də Davosda Azərbaycan və Ermənistan liderlərinin görüşü və nəhayət, yanvarın 23-də ABŞ-ın milli təhlükəsizlik məsələlərin üzrə məsləhətçisi Con Bolton və Paşinyan arasında telefon söhbətinin olması "Bolton planı"nın olduğuna dair "faktlar"dır. Qeyd edilir ki, Birləşmiş Ştatlar "böyük oyun"un moderatorudur və oyunun vektoru Rusiyaya qarşı yönəldilib, İran hədəf, ABŞ-ın partnyorları Türkiyə və Azərbaycan, alət isə Ermənistandır.

"Bu oyunda Ermənistan xırda pul oldu. Faktdır ki, "Bolton planı" Paşinyan rəsmən baş nazir olmasından sonra reallaşmanın praktik mərhələsinə daxil oldu. Təbii ki, Paşinyan bu rolu öz üzərinə götürmək istəmir, amma, göründüyü kimi, ya "yox" deyə bilmir, ya da oyunun mənasını anlamır. Faktdır ki, indiki halda, Paşinyan Dağlıq Qarabağla intensiv danışır və bu mübahisəsizdir. Əgər artıq xalqların sülhə hazırlanmasından danışılırsa, tərəflər detalların uyğunlaşdırılması mərhələsinə keçiblər. Və məhz bu, həyəcana səbəb olur", - "Yerkramas" qeyd edib.

Ermənistanın "Past" qəzeti Davos görüşü ilə bağlı yazı dərc edib və maraqlı iddia ortaya atıb. Qəzetdə verilən informasiyaya görə, iki ölkə liderləri arasındakı danışıqların təsadüfən baş tutduğu söylənilsə də, əslində tərəflər bu barədə qabaqcadan xəbəri olub. Hətta onun detalları xarici işlər nazirləri Elmar Məmmədyarov və Zöhrab Mnasakanyanın 4 saatlıq görüşündə müzakirə edilib.

**Bundan öncə rusiyalı politoloq Stanislav Tarasov iyun ayında Ermənistanın Azərbaycana bir neçə rayonu qaytaracağı barədə məlumat yaymışdı.**

"Gözlərə baxın, İlham Əliyev sevincli görünür, Paşinyan isə məzlumdur" - deyən politoloqun fikrincə, iyunda Paşinyan və İlham Əliyev Qarabağla bağlı razılaşma imzalayacaq və bu sazişə əsasən, ermənilər bir neçə rayonu qaytarmalı olacaq. Tarasovun sözlərinə görə, bununla Ermənistan-Türkiyə protokolları Türkiyə parlamentinə qaytarılacaq və bu sənəd ratifikasiya ediləcək, diplomatik əlaqələr qurulacaq, nizamlanmanın paket layihəsi peyda olacaq və "Paşinyanın istəyi yerinə yetəcək".

Azərbaycanla Ermənistan Qarabağla bağlı razılaşmanı martda imzalaya bilər. Bunu isə "Joxovurd" qəzetinə açıqlamasında rusiyalı politoloq Modest Kolerov deyib. O, tərəflər arasında razılaşmanın çoxdan mövcud olduğunu, sadəcə, bu sənədlərə yekun imzanın bu tarixdə atılacağını söyləyib(Axa.az). Qəzetə açıqlama verən Qarabağ separatçılarının sözçüsü David Babayan isə belə razılaşmanın olacağına inanmadığını deyib. O, qondarma rejimin iştirakı olmadan Qarabağla bağlı razılaşmanın olmayacağını söyləyib.

"Yeni Müsavat"a açıqlamasında burada "erməni barmağı"nın olduğunu güman edən **politoloq Elxan Şahinoğlu**nun sözlərinə görə, hiss olunur ki, "Qarabağ klanı" Azərbaycan prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasındakı son Davos görüşünü öz məqsədləri üçün istifadə etməyə çalışır: "Klan ermənilər arasında şübhə toxumu səpməyə çalışır ki, guya Paşinyan "təslimçi sülhə" hazırlaşır. Halbuki, Paşinyan Qarabağ münaqişəsinin həllində bircə addım da atmağa hazır deyil və Davosda da heç bir razılaşma qeydə alınmayıb. Buna baxmayaraq, "Qarabağ klanı" Paşinyanın mövqelərini zəiflətmək üçün bütün fürsətlərdən istifadə edir və edəcək, Azərbaycan prezidenti ilə görüş də bu qəbildəndir. "Qarabağ klanı" ondan da şübhəlidir ki, nədən onların hakimiyyətdəki dövrdən fərqli olaraq Nikol Paşinyanın hakimiyyəti dövründə cəbhə bölgəsində atəşkəsə riayət olunur, gərginlik yoxdur. Yəni demək istəyirlər ki, Azərbaycan hakimiyyətinin Paşinyana münasibəti eks-prezidentlər Serj Sərkisyana və Robert Köçəryana münasibətdən fərqlənir".

**Davos görüşü ətrafındakı ajiotaja gəldikdə, E.Şahinoğlu bildirdi ki, bu, sıradan bir görüş olub:** "Tərəflər özləri də etiraf edirlər, heç bir razılaşma olmayıb. Hətta Paşinyan sonradan qorxusundan hətta internet üzərindən müraciət də yaydı. Ümumilikdə Paşinyan heç bir addım atmayacaq. Sadəcə, razılaşma olub ki, iki ölkənin liderləri hansısa tədbirdə iştirak edirlərsə, bir araya gəlib müzakirələr aparsınlar. Məncə, burada hər hansı problem yoxdur".

**Politoloq Arzu Nağıyev** də qezetimizə martda sülh razılaşmasının imzalanmasını real saymadığını dedi. Bildirdi ki, bənzər açıqlamalar əvvəllər də olub.

Hər halda bu kimi nikbin açıqlamaların davamlı xarakter alması maraq doğurur. Düzdür, 2016-cı ilin ikinci yarısında da bəzi rus ekspertlər bənzər açıqlamalar verirdilər. Amma hər necə olmasa, il də dəyişib, Ermənistan hakimiyyəti də. Üstəlik, Parisdə xalqların sülhə hazırlanması barədə şifahi razılıq əldə olunub. Azərbaycan hakimiyyəti isə İrəvandan konkret addım tələb edir. Gözləyək...

❑ **Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

# AŞ-a təqdim olunan 130 nəfərlik siyahıda hansı məhbusların adı var?

## Fərəc Quliyev: "Belə siyahıların verilməsi Azərbaycanın mövqelərini zəiflətməyə hesablanıb"

## Novella Cəfəroğlu: "Siyahıda olan bütün məhbuslar azad olunsun"





**Xəbər verildiyi kimi, Avropa Şurasının Azərbaycanda siyasi məhbuslar üzrə məruzəçisi Torxildur Varsdottir (İslandiya) yanvarın 22-də Azərbaycanda siyasi məhbuslara dair ilkin memorandumu AŞ PA İnsan Hüquqları və Hüquq Komitəsinə təqdim edib. Bu çox səhifəlik sənəddə 130 siyasi məhbusun adı yer alır.**

Siyahıda gənc blogger Mehman Hüseynov, jurnalist Əfqan Muxtarlı, "Müsəlman Birliyi" Hərəkatından Tale Bağırzadə başda olmaqla çoxsaylı dini fəallar, Qiyas İbrahimov, Bayram Məmmədov, Elgiz Qəhrəman, Saleh Rüstəmov kimi məhbuslar, eləcə də, keçmiş dövlət məmurlarından Zərdab rayonunun müstəntiqi Rüfət və sabiq səhiyyə naziri Əli İnsanovun adı yer alır.

Xanım məruzəçinin hazırladığı bu siyahıya Azərbaycandan sərt təpkilər var. Xüsusilə, Hollandiyada yaşayan hüquq müdafiəçisi Leyla Yunusun birbaşa nəzarəti ilə ona Azərbaycanda yaxın olan şəxslərin 160-dan çox siyasi məhbus siyahısı hazırlaması və islandiyalı məruzəçinin buna daha çox istinad etməsi ciddi etiraz doğurub. Ekspertlər Azərbaycanla Avropa Şurası arasında əlaqələrə bu sənədin kölgə sala biləcəyini vurğulayırlar.

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev** Azərbaycan-AŞ əlaqələrinin gərginləşəcəyini ehtimal etmir: "Avropa Şurasının son iclasında maraqlı bir məsələ oldu. Azərbaycana qarşı çıxış edənlərə Avropa Şurasının prezidenti net şəkildə cavab verdi ki, bir çox məsələləri siyasiləşdirməyin. Çağırış gərək Azərbaycandakı bir sıra QHT-lərə örnək olsun. O siyahıları belə QHT-lər verirlər. Açığı, hesab etmirəm ki, son təqdim edilən bu siyahı Avropa Şurası ilə Azərbaycanın əlaqələrinə kölgə salacaq. Artıq vəziyyət dəyişib. Hər şeyi siyasiləşdirmək olmaz. Həbs edilən şəxslərin hansı peşə sahibi olmalarından asılı olmayaraq, heç kim onlardan yan keçə bilməz. Bunu dəfələrlə bildirmişəm. İstəyir deputat, istərsə də, jurnalist olsun, hər kəs qanun qarşısında bərabərdir. Belə siyahıların verilməsi, təbii ki, Azərbaycanın mövqelərini zəiflətməyə hesablanıb. Son vaxtlar Avropa İttifaqına üzv ölkələrlə münasibətlərimiz çox yüksək səviyyəyə çatıb. Bundan qıcıq olan ruspərəstlər burada öz işlərini görməyə cəhd edirlər. Hesab edirəm ki, Avropa təsisatları tərəfindən bu məsələ bilinir, nəzərə alınır. Onlar da bu məsələyə adekvat yanaşıb, çox da ciddiyə almayacaqlar. Amma bütün hallarda QHT-ləri, bu siyahıları verənləri Avropa Şurasının prezidentinin o çağırışından örnək götürməyə çağırıram ki, Azərbaycanı nüfuzdan salmaqla, belə bir həssas məqamda mövqeyinə mənfilər gətirməklə məşğul olmasınlar".

**Hüquq müdafiəçisi Novella Cəfəroğlu** bunları dedi: "Leyla Yunus xaricdə yaşayır. Burada olanlar siyahını hazırlayıb, ora göndəriblər. Bizim siyahıda az məhbusun adı yer alır. İstəyirəm ki, siyahıda olan bütün məhbuslar azad olunsunlar. Müxtəlif siyahılarda olan nə qədər məhbus varsa, azad edilsin. Çünki Azərbaycanı qorumaq, gələn təzyiqləri aradan qaldırmaq üçün bu problemdən birdəfəlik qurtulaq. Bundan sonra beynəlxalq qurumların deməyə sözləri qalmasın. Bizim nə qədər məhbusun adını təqdim etməyimizin anlamı yoxdur, çünki orada oturanlar 130-140 məhbusun adını verəcəklər. Şəxsən mən istəyirəm ki, bizim siyahıda olmayan Nardaran məhbusları belə azad olunsun. Səid Dadaşbəylinin də dəstəsindən olanlar da azad edilməlidir. Biz istəsək də, istəməsək də, onların siyahıları Avropaya daima gedəcək".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# 26 yanvar mitinqinə icazə verilmədi - müxalifət icazəsiz aksiyalara gedəcəkmi...

**Milli Şuranın 26 yanvar mitinqinə icazə verilməməsi gündəmin müzakirə mövzularından biridir. Bakı Şəhər Baş Polis İdarəsinin rəisi, general Mirqafar Seyidovun Bakı Şəhər İcra Hakimiyyətinə müraciət edərək təhlükəsizlik tədbirləri ilə bağlı mitinqin keçirilməsinə razılıq verilməməsi barədə vəsatətinin ardından belə bir cavabın verilməsi ətrafında müxtəlif fikirlər səslənir.**

Bundan sonra nələrin ola biləcəyi də müzakirə edilir. Eyni zamanda, ölkə müxalifətinin icazəsiz aksiyalara başlayıb-başlamayacağı gündəmə gəlib.

**Sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli** icazəsiz aksiyaların keçirilməsinin tərəfdarı deyil: "Belə aksiyaların keçirilməsi ölkədə konfrontasiya mühiti yarada, mənasız həbslərə yol aça bilər. Nəticə etibarı ilə ölkədə gərginliyin ehtimalları artar. Hazırda Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqların intensivliyi artıb. Müəyyən qədər ümidverici işartılar görünür. Kütləvi tədbirlərin azadlığı məsələsi Azərbaycan dövlətinin daim diqqət mərkəzində olub. Hər zaman da kütləvi tədbirləri keçirməyə adətən icazə verilib. 26 yanvar mitinqi ilə bağlı Bakı Şəhər Baş Polis İdarəsinin mövqeyi başadüşülən olmasa da, polis təhlükəsizlik məsələləri ilə bağlı öz üzərinə öhdəliklər götürmək istəmir, bir növ boyun qaçırır. Belə olan təqdirdə mitinqlərə icazə verilməsi təhlükəli tendensiyalar yarada bilər. Mənə elə gəlir ki, bu uzun da sürməməlidir. Mitinqlər insanların əhval-ruhiyyələrinin idarə edilməsində bir vasitədir. Cəmiyyətdə gərginliyi azaltmağın yollarından biri də icazəli mitinqlərdir. Bu bir növ insanların özünü idarə etmələrinin bir formasıdır. Güman edirəm ki, Azərbaycan dövləti xüsusilə, Avropa Birliyi ilə yaxınlaşma ilə əlaqədar olaraq, Qarabağ münaqişəsinin həlli istiqamətində dönüş yarana biləcəyini nəzərə alaraq, mitinq tələbləri ilə ehtiyatlı davranacaq, bir müddətdən sonra mitinqlərin keçirilməsinə icazə verəcək. İcazəsiz mitinqlərə, xüsusilə, ciddi qarşıdurmalara yol aça biləcək aksiyalara müsbət yanaşmıram. Burada insanların taleyi ilə yanaşı, ölkədə sabitliyin də ön plana çəkmək istəyirəm - amma kütləvi tədbirlərin azad surətdə keçirilməsi məsələsi diqqətdə saxlanılmaq şərti ilə".

## Qabil Hüseynli: "Uzaq olmayan bir zamanda mitinqlərin keçirilməsinə icazə veriləcək"



**Politoloq ölkə daxilində əhval-ruhiyyənin dəyişdiyini də qeyd etdi:** "Dəyişən əhval-ruhiyyədə siyasi qüvvələrin iştirakında heç bir qəbahət görmürəm. Güman etmirəm ki, mitinq keçirmək istəyən adamlar Azərbaycanın strateji dövlət maraqlarını nəzərə almaq istəmirlər. Onların da hamısının güman edirəm ki, Dağlıq Qarabağ məsələsi ilə bağlı ciddi qayğıları var. Bu məsələdə yetərincə ehtiyatlı bir taktikanın yeridilməsinə riayət edirlər, yaxud da etməyə borcludurlar. Mitinqlər, kütləvi tədbirlər insan haqları məsələsinin bir qoludur. Bunun reallaşdırılması istiqamətində Azərbaycanın siyasi rəhbərliyinin indiyə qədər yeritdiyi xətti məqbul hesab edirəm. Güman edirəm ki, bu xətt də bundan sonra davam etdiriləcək. Sadəcə olaraq, hakimiyyət də ölkədə əhval-ruhiyyələrin məcrasından çıxmamasını proqnozlaşdıraraq mitinqlərlə taktikalar həyata keçirir. Bu taktika mütləq qadağalarla müşahidə olunmur, yaxud da mütləq müşahidə olunmayacaq. Çox uzaq olmayan bir zamanda mitinqlərin, kütləvi tədbirlərin keçirilməsinə icazə veriləcək".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Qarabağ Komitəsindən "bu dəfə mitinq keçirməkdə israrlıyıq" bəyanatı

## 16 fevral mitinqinə də icazə verilməsə...

**Qarabağ Komitəsi fevralın 16-a növbəti Qarabağ mitinqini təyin edib. Bundan əvvəl təyin etdikləri mitinqlərə (29 sentyabr mitinqi istisna olmaqla) Bakı Şəhər İcra Hakimiyyətindən "yox" cavabı alan Qarabağ Komitəsi mitinqdə israr etməmiş və razılaşdırılmamış aksiyaya getməmişdi.**

16 fevrala təyin olunan mitinqə BŞİH-nin razılıq verib-verməyəcəyi hələlik məlum deyil. Əgər yenə də "yox" cavabı olacağı halda Qarabağ Komitəsi mitinqi keçirməkdə israr edəcəkmi? Razılıq verilməsə Komitə əvvəlki mövqeyini təkrarlayacaq, yoxsa bu dəfə mitinqi keçirməkdə israr edəcək?



**Qarabağ Komitəsinin İşçi Qrupunun üzvü Akif Nağı** "Yeni Müsavat"a bildirdi ki, qurum "Qarabağa azadlıq!" tələbini gündəmdə daim saxlamaqla, cəmiyyətin Qarabağa azadlıq tələbi ətrafında fəallaşması məqsədini güdür: "Bunun üçün müxtəlif təsir imkanlarından, o cümlədən mitinqlərdən istifadə edirik. Biz mitinqə paralel, may ayında Qarabağ qurultayının keçirilməsi ilə bağlı da qərar qəbul etmişik. Ona da hazırlıq işlərinə başlamışıq. Bu da ciddi təsir formalarından biridir. 16 fevralda mitinq keçirməyə israrlıyıq. İstərdik ki, hakimiyyət də bizim mitinqlərin əhəmiyyətini qəbul etsin və mitinqi razılaşdırılmış qaydada keçirək. Qarabağın azadlığı naminə hakimiyyət və cəmiyyət, xalq arasında birgə fəaliyyətin əhəmiyyətini hər kəs dərk etməlidir. Biz hakimiyyətə Qarabağ məsələsi ilə bağlı təzyiq və dəstək mövqeyindən çıxış edirik. Hakimiyyətə təzyiq edirik ki, Qarabağın azadlığı üçün radikal addımlar atsın, uyğun addımları atarsa, tam dəstək verməyə hazırıq. Çıxış yolunu bunda görürük. Hakimiyyət Qarabağın azadlığını istəyirsə, bizim bu mövqeyə müsbət yanaşmalıdır. Biz hakimiyyətin getməsini yox, qalıb Qarabağı azad etməsini istəyirik. Özünü müxalifət adlandıran bəzi qüvvələr isə hakimiyyətin mütləq dəyişməsini istəyirlər, ona çalışırlar. Hakimiyyət də nə istədiyini ortaya qoymalıdır. Bütün xalqın istəyi, arzusunu yerinə yetirib müharibəni başlamaq, Qarabağı azad etməklə isə hakimiyyətdə uzun zaman qalmaq mümkündür. Ona görə də Qarabağsevərlərin, Qarabağın azadlığından başqa heç bir niyyəti olmayan qüvvələrin tələb və mövqeyinə hörmətlə yanaşılmalı, o cümlədən, mitinqin keçirilməsinə şərait yaradılmalıdır".

**Qarabağ Komitəsinin İşçi Qrupunun üzvü Tural Abbaslı** bildirdi ki, Qarabağ Komitəsi mitinq məsələsində israrlıdır: "Biz düşünürük ki, indiki məqamda bu mitinq Qarabağın azadlığı üçün çox önəmlidir. Çünki hakimiyyət və beynəlxalq aləm, xalqın iradəsini görməsə, Azərbaycan maraqlarının əleyhinə addımlar ata bilər. Mən düşünürəm ki, hakimiyyət yenə də hakimiyyət bu mitinqin də keçirilməsinə razılıq verməyəcək - baxmayaraq ki, belə bir mitinq hökumətin dəyirmi masa arxasındakı Qarabağ danışıqlarında mövqelərini möhkəmlədə bilər. Əgər bu dəfə də hakimiyyət razılıq verməsə hansı addımların atılacağı barədə Qarabağ Komitəsinin iclasında qərar veriləcək. Burada adətən bu mövzuda müxtəlif fikirlər olur. Bu dəfə hansı təklifin keçəcəyini demək çətindir. Zamanı gələndə mətbuata bu barədə məlumat veriləcək".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 19 (7189) 26 yanvar 2019



# Yeni Qarabağ təşəbbüsləri - Rusiya problemin həllini istəyirmi?

Davos görüşü ətrafında müzakirə və mübahisələr səngimir; **politoloq:** "Paşinyanın öz xoşu ilə rayonları boşaltmaq istəyi və həvəsi yoxdur, bunu ona Azərbaycan ordusu məcbur edə bilər..."

**Azərbaycan prezidenti İlham Əliyevlə Ermənistan baş naziri Nikol Paşinyan arasında İsveçrənin Davos şəhərində daha bir qeyri-formal görüşün keçirilməsi işğalçı ölkədə Paşinyana hücumların artmasına səbəb olub. Gözlənildiyi kimi, bu hücumlar ən çox "məxməri inqilab" nəticəsində hakimiyyətdən devrilmiş radikal qüvvələrin, "müharibə partiyası" və Qarabağa klanı təmsilçilərindən gəlir.**




**Belə görünür ki, onlar bununla təzə baş naziri ölkə daxilində nüfuzdan salıb, onun hökumətinin daxili dayaqlarını zəiflətmək və bu fonda revanş götürmək ümidi ilə yaşayırlar. İddiaların bir motivi də Davosda Əliyev-Paşinyan görüşünün saat yarım çəkməsi ilə bağlıdır. Yəni sual edilir ki, əgər bu, adi görüşdüsə, tərəflər saat yarım ərzində nədən danışıblar?**

Əslində isə iki tərəf arasında ilk növbədə etimad mühitinin yaradılması və konfliktin dinc yolla həllini irəli aparmaq yönündə ən yüksək səviyyədə səylər davam etdirilir. Azərbaycan Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin dediyi kimi, Davos görüşü Düşənbə və Sankt-Peterburqda MDB zirvə toplantısı çərçivəsində baş tutmuş qeyri-rəsmi görüşlərin davamı kimi qiymətləndirilə bilər.

**Sitat**: "Bildiyiniz kimi, danışıqlar prosesi Ermənistan və Azərbaycan xarici işlər nazirləri səviyyəsində aparılır. Belə ki, bu ilin 16 yanvar tarixində Parisdə, 2018-ci ilin 3 dekabr tarixində isə Milanda Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin görüşü keçirilib. Qarşıdan gələn dövrdə də xarici işlər nazirləri səviyyəsində görüşün keçirilməsi nəzərdə tutulub. Tam formatda dövlət başçıları səviyyəsində görüş bir qayda olaraq ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən təşkil olunur".

*****

**Ancaq deyəsən, İlham Əliyev və Nikol Paşinyan arasında artan birbaşa təmaslar Rusiyadakı müəyyən çevrələri də narahat etməyə başlayıb.** Onlar Ermənistan daxilində siyasi qarşıdurmanın kəskinləşməsi və beləliklə, bu fonda Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanması perspektivinin əlçatmaz olmasına çalışırlar. Məsələn, iki gün öncə rusiyalı politoloq, ermənipərəst mövqeyi ilə tanınan Stanislav Tarasov iddia edib ki, iyun ayında işğal altındakı bir neçə rayon Azərbaycana qaytarılacaq.

Onun bu fikirləri həm Ermənistanda, həm də elə Azərbaycanda birmənalı qarşılanmayıb. Əlbəttə ki, nə vaxtsa Ermənistan onsuz da zəbt elədiyi ərazilərdən çıxmalı olacaq. Bu proses 2019-cu ildə də başlaya bilər. Ancaq bunun konkret tarixi hələlik bəlli deyil. Ən azından ona görə ki, İlham Əliyevlə Nikol Paşinyan arasında tam formatda görüş hələ olmayıb. Rusiya tərəfindən də Dağlıq Qarabağ ixtilafının həllində dönüş yaratmaq üçün hansısa hərəkətlilik görünmür.

Bu xüsusda politoloq Elxan Şahinoğlu güman edir ki, Tarasovun "rayonlar boşaldılacaq" fikrini irəli sürməkdə məqsədi Azərbaycanın gücünü ön plana çıxarmaq yox, Paşinyana qarşı ölkə daxilində təzyiqi artırmaqdır. Onun sözlərinə görə, Köçəryan-Sərkisyan cütlüyünə və Rusiyadakı erməni lobbisinə işləyən Tarasovun Nikol Paşinyandan xoşu gəlmir.

"Rusiyalı politoloq Stanislav Tarasovun "Nikol Paşinyan iyun ayında Dağlıq Qarabağ ətrafındakı bir neçə rayonu azad edəcək" fikri təsadüfü deyil. Tarasov Gəncədə doğulmasına rəğmən, qatı ermənipərəstdir, Moskvada ermənipərəst "Reqnum" agentliyinin baş analitikidir. O, Azərbaycan və azərbaycanlılar əleyhinə tonlarla yazı yazıb, ömrü boyu erməni separatçılarına xidmət edib", - deyə ekspert qeyd edib.

Politoloq onu da vurğulayıb ki, Stanislav Tarasov Qarabağ klanının "vuran əli"dir: "Ona görə də Tarasov "rayonlar boşaldılacaq" dedikdə Paşinyanın ölkə daxilində mövqelərini zəiflətmək, onu "təslimçi" kimi qələmə verərək Qarabağ klanının hücuma keçməsinə şərait yaratmaq niyyəti güdür. Yəni o, dezinformasiya yayır. Paşinyanın öz istəyi ilə Dağlıq Qarabağ ətrafındakı rayonları boşaltmaq istəyi və həvəsi yoxdur. Bunu Paşinyana Azərbaycan ordusu məcbur edə bilər. Bu haqda isə Tarasov bir kəlmə də demir".

*****

**Beləliklə, Azərbaycan və Ermənistan arasında ölkə rəhbərləri və XİN başçıları arasında Qarabağla bağlı artan təmaslardan spekulyativ istifadə cəhdləri də ortadadır.** Təbii ki, çox şey öz xalqı ilə açıq danışmağa üstünlük verən Nikol Paşinyandan asılı olacaq. O, artıq Davos görüşü ilə bağlı ermənilərə izahat verib. Lakin Ermənistanın yeni, sələflərindən fərqli olaraq əli günahsız azərbaycanlıların qanına batmamış lideri anlamamış deyil ki, Qarabağ münaqişəsi həll olunmadan, yaxud konfliktin həllində dönüş üçün Azərbaycanla mühüm anlaşma əldə edilmədən, Türkiyə və Azərbaycanla sərhədlər açılmadan daxildə onun heç bir iqtisadi-siyasi islahatı, Rusiyadan vassal asılılığını aradan qaldırmaq yönündə səyləri baş tutası deyil.

Azərbaycan və Türkiyə ilə anlaşmanı isə məhz Paşinyan təmin edə bilər. Bundan ötrü onun öz xalqından güclü mandatı var. Erməniləri bu anlaşmanın vacibliyinə məhz o inandıra və öz xalqını sülhə də o hazırlaya bilər. Əks halda, onun iqtidarının ömrü uzun çəkə bilməz. Çünki narazı əhalidə haqlı sual yaranacaq ki, əgər hələ də erməni ailələrinə tabutlar bəxş edən Qarabağ, dolanışıq və iqtisadi güzəran problemləri həllini tapmayacaqdısa, onda xalq inqilab edib hakimiyyəti niyə dəyişirdi?

Davos görüşündən dolayı daha bir sual Rusiya ilə bağlıdır. Bu ondan ibarətdir ki, Paşinyandan xoşlanmayan rəsmi Moskva, konkret olaraq, prezident Vladimir Putin Dağlıq Qarabağ məsələsində gerçəkdənmi tezlikli irəliləyiş olmasını arzu edir, yoxsa Qarabağ məsələsindən istifadə edib Paşinyanı başqası ilə əvəzləmək planı var? Ümumiyyətlə, Bakı və İrəvan arasında Moskvanın vasitəçiliyi olmadan baş tutan son yüksək səviyyəli təmaslar Kremli narahat eləmir ki, nəhayət, yeni Qarabağ təşəbbüsləri Rusiyanın ürəyincədimi?

**Bu kimi sualların hamısına yəqin ki, önümüzdəki bir neçə ayda aydınlıq gətiriləcək.**

# Məşhur nəşr Xocalıdan yazdı




**Dünyanın ən məşhur nəşrlərindən sayılan "National Geographic"in sosial şəbəkə hesablarında 1992-ci ildə erməni quldurlarının törətdiyi Xocalı qırğınından möcüzəli şəkildə sağ qurtulmağı bacaran azərbaycanlı qadın barədə informasiya yerləşdirilib (axar.az). Belə ki, nəşrin İnstaqram səhifəsi 61 yaşlı Azərbaycan vətəndaşı Elmira Allahverdiyevanın fotosunu paylaşıb.**

"Elmira Allahverdiyeva - 61 yaş. Xocalı qırğınından sonra sağ qalmağı bacaranlardan biridir. Foto 22 oktyabr 2017-ci ildə Azərbaycanın Goranboy rayonunda çəkilib", - foto İnstaqram izləyicilərinə bu sözlərlə təqdim edilib.

Xocalı soyqırımı zamanı Elmira Allahverdiyevanın həyat yoldaşı, qardaşları, ata və anası qəddarlıqla qətlə yetirilib. Onun 25 qohumunun adı hələ də itkin düşən insanlar siyahısındadır.

Qeyd edək ki, hesabın soydaşımız barədə paylaşımı qısa zaman ərzində 39 min dəfədən çox bəyənilib. Hesabın izləyici sayı isə təxminən 100 milyona yaxındır.

Bunun ardınca erməni sosial şəbəkə istifadəçiləri nəşri tənqid etməyə, "Sumqayıt hadisələri"nə diqqət ayırmamaqla ayrı-seçkiliyə yol verməkdə suçlamağa cəhd ediblər.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 19 (7189) 26 yanvar 2019

# "Saakaşvili Timoşenkoya revanşizm niyyəti ilə dəstək verir"

**Deputat Elman Nəsirov:** "Ukraynalılar onların hakimiyyətdəki illəri yaxşı xatırlayırlar, üstünlük nisbətən Poroşenkodadır"

**Gürcüstanın eks-prezidenti Mixail Saakaşvili şansını növbəti dəfə Ukraynaya bağlayıb. O, Ukrayna prezidentliyinə namizəd, Batkivşina (Vətən - E.S) Partiyasının sədri Yuliya Timoşenkonu gələcək - martın 31-də olacaq prezident seçkisində dəstəkləyəcəyini bildirib.**

Saakaşvili Ukrayna vətəndaşlığının əlindən alınmasından sonra Timoşenkonun onu dəstəkləyən ilk şəxslərdən biri olduğunu deyib.

Saakaşvili 2008-ci ildə Rusiya ilə Gürcüstan arasındakı savaş zamanı Tiflisə məhz Timoşenko hökumətinin dəstək göstərdiyini də xatırladıb. O, Timoşenkonun prezident Poroşenkonun "banda"sını hakimiyyətdən qovacağına ümid etdiyini vurğulayıb.

Gürcüstandakı seçkilərdə Saakaşvilinin dəstəklədiyi namizədin prezident seçilməməsi və onun öz vətəninə dönüşünün mümkün olmamasından sonra "Mişa" təzədən Ukrayna siyasətinə baş vurur.

Poroşenko iqtidarı dövründə Ukraynanın Odessa şəhər qubernatoru olmuş və sonra vəzifəsindən getmiş Saakaşvili indi hazırkı hakimiyyətə qarşı mübarizə aparır.

İki ölkədə hakimiyyət uğrunda mübarizə aparan və hələ də istəklərinə nail ola bilməyən "Mişa" indi ümidini Timoşenkoya bağlayıb.

Timoşenko 2004-cü ildə "narıncı inqilab"ın liderlərindən olub. Saakaşvil isə Gürcüstandakı "qızılgül inqilabı"nın rəhbəridir.

İndi iki inqilabın liderləri Ukraynada hakimiyyətə gəlmək arzusundadır. Xalqın və siyasi güclərin buna imkan verəcəyini artıq zaman göstərəcək.



Timoşenko "Kuçməsız Ukrayna" hərəkatının aktiv iştirakçılarındandır. 2002-ci il parlament seçkiləri öncəsi yaratdığı "Yuliya Timoşenko Bloku" səslərin 7 faizini alıb və parlamentdə 20 yer qazanıb.

O, 2004-cü ildə prezident seçkilərinə qatılmaqdan imtina edib və Viktor Yuşşenkonu dəstəkləyib. "Maydan Nezalejnosti"də (Müstəqillik meydanı) keçirilən kütləvi aksiyaların əsas təşkilatçılarından, "narıncı inqilab"ın əsas simalarından olub.

Viktor Yuşşenkonun prezident seçilməsindən sonra Yuliya Timoşenko baş nazir kürsüsündə əyləşib.

Ancaq 2000-ci ildə hökumətə uğurla başçılıq edərək ciddi iqtisadi islahatlara imza atan bu iki şəxs bu dəfə yola getmir və onlar bir-birlərini "Maydan idealları"na xəyanət etməkdə, korrupsiyada günahlandırırlar.

Yuliya Timoşenkonun baş nazir olduğu birinci dönəmə münasibət fərqlidir. Timoşenko özü hesab edir ki, prezident və onun komandasının əks fəaliyyətinə baxmayaraq, çoxlu uğurlara nail olub.

Əleyhdarları isə hesab edir ki, həmin dövrdə Ukraynada ÜDM-in səviyyəsi aşağı düşüb, çörək, ət və benzinlə bağlı böhranlar yaşanıb. Timoşenko 2014-cü ilin fevralın 22-də həbsdən çıxıb.

**Deputat, siyasi şərhçi Elman Nəsirov** "Yeni Müsavat"a bildirdi ki, Ukraynada ictimai-siyasi vəziyyət yaşadığı inqilablardan sonra çox acınacaqlı hala düşüb.

Onun fikrincə, bu gün Ukraynada monolit bir cəmiyyət yoxdur: "İqtidar ətrafında birləşmiş cəmiyyət, xalqla hakimiyyət birliyi qalmayıb. Bu, Ukraynanı düşdüyü vəziyyətdən çıxara bilmir. İnqilablardan sonra Ukraynada beynəlxalq qüvvələrin mənafeləri toqquşur və ölkənin ərazi bütövlüyü sual altına düşüb, qarşıdurmalar var.

Bu reallıqlar fonunda hakimiyyət uğrunda mübarizə aparan siyasi qüvvələri xalq yaxşı tanıyır. Onlar uzaq keçmiş deyillər. Ukraynalılar onların hakimiyyətdə olduqları illəri çox yaxşı xatırlayırlar, hansı problemlərlə üzləşdiyini bilirlər.

O baxımdan Ukrayna cəmiyyətini çaşdırmaq, itirilməkdə olan nüfuzu qazanmaq çətindir. Onlar isə təzədən iqtidar ambisiyasındadırlar".

**E.Nəsirovun sözlərinə görə, Timoşenko hakimiyyətdə olub və Ukrayna cəmiyyətində ona birmənalı münasibət yoxdur:** "Sorğu keçirilsə, orta statistik ukraynalının Timoşenko barədə rəyi mənfi olacaq. Bunu Ukraynada olmuş və prosesləri izləmiş biri kimi söyləyirəm.

Saakaşviliyə gəlincə, revanşizm niyyəti ilə Timoşenkoya dəstək verir, onunla siyasi işbirliyi qurur. Saakaşvili də Ukraynadakı siyasi fəaliyyəti ilə istədiyi nəticəni əldə edə bilməyib.

Onun qubernatorluqdan gedişi, Ukraynadan çıxarılması uğursuz bir yola çıxmasına səbəb oldu. İndi Timoşenkonun arzularını gerçəkləşdirmək istəyir. Bu tandemin prezident səviyyəsində qələbə ilə nəticələnəcəyinə inanmıram".

**Millət vəkili hesab edir ki, inqilablar olmuş dövlətlər fəlakət yaşayır:** "Bu tarix bizə uzaq deyil. Mən Ukraynada olanda 90-cı illərdə Azərbaycanın yaşadıqları yadıma düşdü. İnsanlar ev əşyalarını satmaq istəyirdi.

Ümumiyyətlə, "ərəb baharı" və Ukrayna hadisələri xalqlara, dövlətlərə dərs olmalıdır. Ölkəni beynəxalq güclərin toqquşma yox, əməkdaşlıq məkanına çevirmək lazımdır.

Bu mənada Azərbaycan bir nümunədir. Hətta bir-birinə düşmən olan dövlətlər də Bakıda toplaşırlar, konfranslar keçirirlər, ən mürəkkəb məsələlər müzakirə olunur".

**E.Nəsirov Ukraynadakı seçkilərdə Poroşenkonun şanslarının nisbətən üstün olduğunu düşünür:** "Bu hadisələr onun qələbə şanslarını artırır. Doğrudur, onun da reytinqi o qədər yüksək deyil, amma qüvvələr nisbətinə görə Poroşenko şanslıdır".

**❑ Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# Milyarder Əhmədov Tatyanaya yarım milyardı verməyəcək

İnterpol da işə qarışdı, milyonların saxtakarlıqla talanması araşdırılır

**Adı "Forbes" jurnalının milyarderlər siyahısında yer alan azərbaycanlı biznesmenlərdən biri də Fərhad Əhmədovdur.**

Biznesdə böyük uğurlar qazanan Fərhad Əhmədov ailə baxımdan bəxti gətirmişlərdən deyil. Həyat yoldaşı - 41 yaşlı Tatyana Əhmədova onu qoyub qaçıb. Ardından Tatyana Əhmədova Fərhad Əhmədova qarşı iddia qaldırıb, London məhkəməsində sabiq ərinə qarşı yarım milyard dollarlıq təzminat qərarı çıxarılmasına nail olub...

(əvvəli ötən sayımızda)

...Fərhad Əhmədov bildirib ki, London məhkəməsinin hakimi onun keçmiş arvadının məkrli planını reallaşdırıb. Hansı ki, qadın 10 il boyu məkrlə gözləyib ki, nə zaman F.Əhmədovun qazandığı pullar onun hesabına oturacaq. O, bu pulların üzərinə öz pəncəsini qoymağı qərara alıb. Məhkəmə nəzərə almayıb ki, F.Əhmədov bu pulları Tatyana ilə nikahı pozulandan sonra qazanıb, 5 uşaq atasıdır, o cümlədən başqa nigahdan olan 3 uşağını böyüdür. Xeyriyyəçiliklə məşğuldur, Rusiyada və Azərbaycanda bir çox insanlar onun dəstəyinə ümidlidir.

**Biznesmen bəyan edib**: "Mən ingilis hüquq sisteminə öz hörmətimi ifadə etməklə bərabər bəyan edirəm ki, məhkəmənin bu şübhəli, gecikmiş və qalmaqallı qərarı dünyada çoxlarını təəccübləndirəcək, onların ingilis hüquq sisteminə və ədalətinə inamını sarsıdacaq". Bəyanatda deyilir ki, London məhkəməsinin qərarı həm də siyasi motivlidir, biznesmenin pullarının yarısını təzminat adı altında əslində Britaniya yuridiksiyası altında saxlamağa, nəticədə bu pulların Britaniya iqtisadiyyatına xidmət etməsinə hesablanıb.



Moskva Şəhər Məhkəməsi azərbaycanlı milyarder Fərhad Əhmədovun London məhkəməsinin qərarı ilə bağlı verdiyi apelyasiya şikayətini rədd edib. Əhmədovun kifayət qədər və etibarlı sübutlar təqdim etmədiyi bildirilib.

"Kassasiya şikayəti veriləcək. Fərhad Əhmədov Ali Məhkəməyə qədər gedib çıxmaq niyyətindədir", - **vəkil, biznesmen İrina Şeqlova** bildirib.

"Moskva Şəhər Məhkəməsi, demək olar ki, heç bir müzakirə olmadan Zyuzinsky Məhkəməsinin qərarını qüvvədə saxladı. Növbəti instansiyada ədalətli qərara nail olacağıq". Bunu isə Fərhad Əhmədov özü "RBK"ya açıqlamasında söyləyib.

London məhkəməsinin qərarına əsasən, Tatyana Əhmədovaya ödənilməli olan təzminatın siyahısına Fransa və Londondakı daşınmaz əmlak, 350 min dollar dəyərindəki "Aston Martin" avtomobili, 90,5 milyon dollar məbləğindəki müasir incəsənət əsərlərinin kolleksiyası, eləcə də 5 ədəd "Holland and Holland" tüfəngi daxildir. Xatırladaq ki, 1993-cü ildə ailə quran cütlük Londonda özlərinə ev alıb, daha sonra onların ilk oğlu, 3 il sonra ikinci oğulları dünyaya gəlib. Tatyana Əhmədova məhkəmə qərarına görə keçmiş ərindən 585 milyon dollar almalıdır. Amma Fərhad Əhmədov London Məhkəməsinin qərarını icra etməmək, qüvvədən salmaq üçün çalışmaqdadır. Tatyana Əhmədovanın vəkilləri də qərarın icrası üçün əlindən gələni edirlər.

Fərhad Əhmədovun "Luna" yaxtasında dünya səyahətinə çıxmasını eşidər-eşitməz hərəkətə keçiblər. Nəticədə məhkəmə "Luna"nın üzərinə həbs qoyub. Fərhad Əhmədovun vəkilləri "Luna" yaxtasını geri almaq üçün Dubayda şəriət məhkəməsinə müraciət ediblər. Fərhad Əhmədovun vəkillərinin işi Britaniya məhkəməsindən Dubaydakı şəriət məhkəməsinə keçirmək istəmələri milyarderin keçmiş həyat yoldaşı Tatyananı qəzəbləndirib. O, buna görə ilk dəfə jurnalistlərə açıqlama verib: "Görünən odur ki, Fərhad əslən Azərbaycandan olduğu üçün müsəlmandır. Amma nikah müddətində heç vaxt onu dizini yerə qoyub namaz qılan, ibadət edən görməmişəm. Məscidə isə o yalnız turist kimi daxil olub".

**Onun bu açıqlamasına Fərhad Əhmədovun qardaşı Fərəc Əhmədov münasibət bildirmişdi. Modern.az saytına açıqlamasında demişdi ki, ailədə 3 qardaş olublar:** "Hamımız da müsəlman qaydasında böyümüşük. Fərhad Əhmədov xaricdə yaşasa da, müsəlman olduğunu danmayıb. Düzdür, sovet dövründə böyüyüb, təhsil alıb. Müsəlman adətlərinə görə, namaz qılıb oruc tutmasa da, İslam dininə, xalqına bağlı adamdır. Sadəcə, keçmiş həyat yoldaşı olan Tatyana "Fərhad Əhmədov məscidə turist kimi gedib" deməklə niyyətini ortaya qoymuş olub. Güman ki, məsələnin məğzi başqadır. Çünki qardaşımın vəkillərinin işi Britaniya məhkəməsindən Dubay şəriət məhkəməsinə köçüb. Dubay da müsəlman ölkəsidir. Tatyana da Fərhad Əhmədovu müsəlman şeyxlərin gözündən salmaq üçün belə fikirlər səsləndirir. Hər halda belə düşünürəm".

Tatyana Əhmədova rekord məbləğdə - 450 milyon funt sterlinqi əlinə almaq üçün 2 ildən artıqdır ki, çabalayır. Bu isə sənəd üzərində 1,4 milyard dollar sərvətə malik Fərhad Əhmədovun varidatının 40 faizini təşkil edir.

Tatyana Əhmədova son açıqlamasında keçmiş ərinin ona hələ ki, 1 qəpik də ödəmədiyini deyib. Fərhad Əhmədov da məhkəmə qərarını kağız parçası adlandırıb və sərvətinin 40 faizini həyat yoldaşına vermək niyyətində olmadığını söyləyib.

2019-cu il yanvarın 21-də məlum olub ki, Beynəlxalq Polis Təşkilatı - İnterpol Fərhad Əhmədov və vəkillərinin keçmiş arvadı Tatyana Əhmədovanın sərvətini saxtakarlıq yolu ilə mənimsəməsi faktını araşdırır. Bu barədə "The Guardian" nəşri məlumat yazıb. Bildirilir ki, milyarder sərvətinin böyük bir hissəsini keçmiş həyat yoldaşı T.Əhmədovaya köçürmə öhdəliklərini aradan qaldırmaq üçün yeni yollar axtarır. Milyarder özü də "İnterpol"un Rusiya nümayəndəliyinə müraciət edərək, məsələnin araşdırılmasını istəyib. Hazırda "İnterpol" Əhmədov və vəkillərinin arvadının sərvətini ələ keçirmək üçün saxtakarlıq edib-etmədiklərini araşdırır.

**❑ E.HÜSEYNOV, "Yeni Müsavat"**

**Hazırda gündəmin əsas mövzusu dördüncü sənaye inqilabıdır. Təsadüfi deyil ki, Davosda keçirilən 49-cu Beynəlxalq İqtisadi Forumun da əsas müzakirə və fikir mübadilələri dördüncü sənaye inqilabı dövründə yeni iqtisadi münasibətlərin, düzənin qurulmasıdır.**

# Dördüncü sənaye inqilabı dövrü -nələr var...

## Osman Gündüz: "Soyuducudan, qaz plitəsinə, hamamdakı su isidicisinə qədər hər bir əşya internetə qoşula biləcək, telefon əlinizdə yox, dərinizin altında olacaq"

Bəs sənaye inqilabı nədir? İlk üç sənaye inqilabı hansılardır? Dördüncü sənaye inqilabı digərlərindən nə ilə fərqlənir? Bu suallar hazırda cəmiyyəti düşündürməkdədir.

Qeyd edək ki, **sənaye inqilabı** Avropada 18-ci və 19-cu illərdə yeni kəşflərin istehsala olan təsiri və buxar gücü ilə işləyən maşınların avtomatlaşdırılmış sənaye yaratması və bu inkişafın Avropadakı kapital inkişafın artmasına deyilir. Sənaye İnqilabı ilk olaraq Böyük Britaniyada meydana gəldi, sonralar isə Qərbi Avropa, Şimali Amerika və Yaponiyada yaranıb və dünyaya yayıldı.

**İkinci sənaye inqilabı** elektrik enerjisi ilə bağlı texnologiyalardan istifadə hesabına mümkün oldu. Bu, kütləvi istehsalın yaradılmasına imkan verdi, istehlak bazarları formalaşdırdı. Kömürdən əlavə, əsas enerji mənbəyi karbohidrogen yanacağı olub.

**Üçüncü sənaye inqilabı** elektronika və informasiya texnologiyaları ətrafında inkişaf edib postsənaye və ya informasiya dünyası adlandırılan fenomeni doğurdu. Bu istehsalın avtomatlaşdırılması ilə nəticələnib və öz növbəsində də sənayedə məşğul olan işçilərin sayını sürətlə azaltdı.

**Dördüncü sənaye inqilabı**nı isə **Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz** "Yeni Müsavat"a açıqlamasında izah etdi: "Onun sözlərinə görə, dördüncü sənaye inqilabı məişətdə, sənayedə və digər sahələrdə istifadə etdiyimiz hər şeyin elektronlaşması və internetə çıxış imkanının olmasıdır: "Dördüncü sənaye inqilabı o deməkdir ki, hər yer rəqəmsallaşacaq. Telefon bu dəqiqə sizin əlinizdədirsə, dördüncü sənaye inqilabı odur ki, telefon sizin əlinizdəki dərinin altında olacaq. Əvvəlki sənaye inqilablarından fərqli olaraq dördüncü sənaye inqilabında dəyişikliklər daha sürətli olacaq. Əvvəlki inqilablar arasında daha çox zaman fərqi olub, ilk üç sənaye inqilabı arasında 100 ilə yaxın zaman fərqi olub. Dördüncü sənaye inqilabı dövründə rəqəmsallaşma artacaq, ətrafımızdakı əşyaların internetə inteqrasiyası güclənəcək. Evinizdə və ofisinizdə nə varsa, hamısı internetə qoşulacaq. Soyuducudan, qaz plitəsinə, hamamdakı su isidicisinə qədər hər bir əşya internetə qoşula biləcək və elektron şəkildə idarəetmə sisteminə malik olacaq. Artıq əvvəlki yüzilliklərdən əsər-əlamət qalmayacaq. Bu dövrə hazır olmaq lazımdır. Dəyişiklik çox sürətli olacaq. Hazırda əsas problem bu dəyişikliklərə uyğunlaşmaqdan ibarətdir. Bu dəyişikliklər bir insan ömründə baş verəcək. O səbəbdən bu prosesdən geri qalmamaq lazımdır. Həm əmək qabiliyyəti baxımından, həm psixoloji baxımdan hazırlıq tələb edir".



**O.Gündüz onu da bildirdi ki, Davos forumu artıq ikinci beynəlxalq iqtisadi forumdur ki, dördüncü sənaye inqilabına istiqamətlənib:** "Hazırda əsas trendlər oradadır. Digər bütün istehsalçılar da onlardan qidalanır. Davos forumunda sənaye inqilabının müzakirə edilməsi təbiidir. Dördüncü sənaye inqilabına əşyaların internetə qoşulması, süni intellekt və robotlar və sair deməkdir. Artıq yeni mesajlar Davosdan gələcək ki, nələr baş verəcək və nələrə hazır olmaq lazımdır. Həm ölkəmizin dövlət başçısı, həm də digər əlaqəli qurumların rəhbərləri orada iştirak edirlər. Bu forumdan ciddi dərslər çıxarmalıyıq, necə edək ki, baş verən dəyişikliklərə cavab verə bilək, proseslərin iştirakçısı olaq. Bu prosesləri qabaqlamaq lazımdır. Yeni sənaye inqilabı dövründə əmək bazarının tələblərinə cavab verən işçi qüvvəsi, kadrlar yetişməlidir. İnfrastruktur ona uyğunlaşdırılmalıdır. Bu istiqamətdə problemlər çoxalacaq".

**Ekspertin sözlərinə görə, öncəki illərdə qəbul olunan strateji inkişaf proqramları, iqtisadi yol xəritələri də yeni sənaye inqilabının tələbləri baxımından yenidən nəzərdən keçirilməlidir:** "Bizdə hazırda ən konseptual sənəd Strateji Yol Xəritəsidir. Dördüncü sənaye inqilabı dövründə artıq hələ həyata keçirə bilmədiyimiz bir çox şeylər köhnəlmiş olur. Bizim konseptual inkişaf proqramlarımız da yenidən nəzərdən keçirilməli, dördüncü sənaye inqilabının tələblərinə uyğunlaşdırılmalıdır.

Hazırda ətrafımızdakı hər şeyin rəqəmsallaşması prosesi gedir. Rəqəmsal mühitinə transformasiya ilə bağlı yeni bir strategiya qurulmalıdır. Davosda "Dördüncü sənaye inqilabı" adlı mərkəz açılıb, dövlət başçısı o mərkəzlə iş birliyi sazişinin imzalanması zamanı da bu fikri qeyd etdi ki, Azərbaycan bu sahəyə öz töhfəsini verməyə çalışacaq. O baxımdan hesab edirəm ki, qazandığımız uğurlarla bərabər görəcəyimiz işlər də çoxdur. Onları zamanında etmək lazımdır".

❑ **Nərgiz LİFTİYEVA**
**"Yeni Müsavat"**

# Böyük "Əfqan sülhü" olacaqmı?

## Amerika uzun illərdən sonra əzəli düşməni Talibanla bir masaya oturdu; amma Vaşinqton tək deyil, sırada Moskva və Tehran da var...

**Qətərdə davam edən ABŞ və Taliban danışıqları müsbət nəticə verə bilər. Hər halda ABŞ mediası bu qənaətdədir. "Amerikanınsəsi"nin məlumatında qeyd olunur ki, Qətər sülh müzakirələri Əfqanıstanda 17 illik müharibənin siyasi həllinə dair ümidləri artırıb.**

Qətərdəki danışıqlarda ABŞ tərəfdən Əfqanıstan üzrə xüsusi nümayəndə Zalmay Xəlilzad iştirak edir. Həmçinin Pakistan və Qətər rəsmiləri də müzakirələrə qatılıb. Mənbələr "Amerikanın Səsi"nə bildirib ki, danışıqların dördüncü günü tərəflər qarşılıqla anlaşma sahəsində bəzi maneələri aradan qaldıra bilib.

Müzakirələrdən öncə Taliban bildirmişdi ki, ABŞ və NATO-nun rəhbərlik etdiyi koalisiya qüvvələrinin Əfqanıstandan çıxarılması məsələsinin vaxt cədvəlini müəyyən etmək istəyir. Taliban Əfqanıstanın ABŞ və ya digər ölkəyə qarşı güc mistəvisi kimi istifadə edilməyəcəyinin təminat altına alınacağını deyir.

Doha müzakirələrinin iştirakçıları ilə əlaqəsi olan mənbələrin bildirdiyinə görə, xarici qüvvələri Əfqanıstandan çıxarıldığı təqdirdə Taliban müvəqqəti atəşkəsə razılıq verə bilər. Pakistan müzakirələrin İslamabadın vasitəçiliyi təşkil edildiyini və Talibanı ABŞ-la sülh müzakirələrinə qane etdiyini bildirir. Pakistanın xarici işlər naziri Məhəmməd Feyzal İslamabadın da müzakirələrdə iştirak etdiyini təsdiq edib, lakin hər hansısa irəliləyiş olduğu barədə məlumat verməyib. Ancaq hələlik danışıqlarda Əfqanıstan hökuməti iştirak etmir. Çünki daha əvvəl ABŞ-ın belə danışıqlar çağırışını Taliban dəfələrlə rədd edib.

Ancaq rəsmi Kabil bir qədər əvvəl bəyan edib ki, Pakistanın vasitəçiliyi ilə Taliban Hərəkatı ilə danışıqlar aparmağa hazırdır. Ötən ay Əfqanıstan Prezidenti Əşrəf Qəni bildirib. Onun sözlərinə görə, Əfqanıstan hökuməti Talibanın Pakistanı vasitəçi kimi görmək istəyəcəyi təqdirdə onlarla danışıqlar aparmağa hazırdır. Bu arada Türkiyə də Əfqanıstan danışıqlarına dəstək verməyə hazır olduğunu bəyan edib.

Ancaq son dövrdə yenidən fəallaşan Talibanla danışıqlar aparan təkcə amerikalılar deyil. Ötən il Taliban təmsilçiləri ilk dəfə Moskvaya səfər edib və burada Rusiya rəsmiləri ilə danışıqlar aparıb. O da bildirilir ki, son illərdə Rusiya və Taliban arasında gizli əlaqələr yaranıb. 2014-cü ildən sonra Əfqanıstanda peyda olan İŞİD bu ölkədə terror və yeni müharibənin anonsu kimi qarşılanıb. Bu səbəbdən də indi keçmiş münasibətlər yenilənir.

Hətta İranın da son dövrlərdə əzəli düşməni Talibanla danışıqlar aparmağa başladığı, İrana



nümayəndə göndərdiyi bildirilir. Bir qədər əvvəl Taliban liderlərindən biri ilk dəfə olaraq mətbuata müsahibəsində İranla əməkdaşlıqdan danışıb. Əfqanıstanın özündə şiə vətəndaşlarının olduğunu, o cümlədən İranla Əfqanıstan arasındakı sərhəd-keçid məntəqələrinin bəzilərinin Talibanın nəzarəti altında fəaliyyət göstərdiyini bildirib.

Bu mənada indi Talibanı artıq region ölkələri real siyasi-hərbi güc olaraq qəbul edir. 2001-ci ilin oktyabrında ABŞ ordusu Əfqanıstanı işğal etdikdən sonra Taliban Kabili tərk edərək dağlara çəkilib. Bir müddət səssiz qalsa da, 2004-cü ildən başlayaraq Talibanın Əfqanıstanda hücumlar etməyə başlayıb. 2009-cu ildə isə yerli hökumət və ardınca isə amerikalılar Əfqanıstanda sülhün əldə olunması üçün Talibanla danışıqlara getməyin vacibliyindən danışmağa başlayıblar. Ancaq indi 10 ildən sonra ABŞ Talibanı Əfqanıstanda real güc kimi qəbul edərək onunla bir masa arxasında əyləşir və sülh sazişi imzalamağa hazırlaşır.

Məsələ ondadır ki, rəsmi olaraq Əfqanıstan 34 vilayət və 407 rayonundan 229-na hökumət, 59-na isə Taliban nəzarət edir. Qalan 119 mübahisəli ərazidə döyüşlər gedir. Yəni ölkənin mühüm bir hissəsinə Taliban nəzarət edir.

Taliban sözü puştun dilində "tələbə" deməkdir, daha çox Pakistan və Əfqanıstanda dini mədrəsələrdə təhsil alanlara verilən ümumi addır. Ancaq Talibanın yetişdiyi mədrəsələr sıradan din təlimi mərkəzi deyil, siyasi İslam fikirlərinin yayıldığı mərkəzlərdir. İlk dəfə 1866-cı ildə Hindistanda qurulan *(o zaman Hindistan və Pakistan ümumi bir müstəmləkə ərazisi idi - **K.R.**)* Diyobendi mədrəsəsi ingilis müstəmləkəçiliyinə qarşı mübarizə fikirlərinin yayıldığı mərkəz idi. Bu təxminən ümumi İslam aləmində yayılmağa başlayan oyanış dalğasının təsiri idi. Bu, cür mədrəsə və məktəblər Hindistan və Pakistan ərazilərində yayğın idi, amma bu məktəblər daha çox fikri oyanışı təbliğ edirdilər.

**1980-ci ildə SSRİ silahlı qüvvələrinin Əfqanıstana yeridilməsinə qarşı xalq müqaviməti başlayır.** Bu zaman təbii ki, dini mədrəsə və camaatlar cihad təbliğatına köklənir. Taliban eyni zamanda bir dini hərəkat olmaqla yanaşı, puştun tayfaları arasında çıxmış, dini və etnik xarakterlərini birləşdirən yerli şərtlərin də təsir etdiyi bir düşüncə cərəyanı idi. Əfqan savaşı bu düşüncənin genişlənərək özünə güc, özü də silahlı güc qazanmasına səbəb oldu. Nəticədə savaş zamanı böyük təcrübə toplayan, çoxlu sayda tərəfdarları olan hərəkat dövrün ən müasir silahlarına sahib idi. 1989-cu ildə sovetlər Əfqanıstanı tərk edərkən ölkədə ən böyük mütəşəkkil qüvvə Taliban silahlıları idi. Talibanı güclü edən bir neçə səbəb vardı.

**Birincisi,** din amilidir: Savaş dini şüarla başladılmışdı, işğalçı ruslara qarşı cihad elan olunmuşdu. Ərəb ölkələrindən dini, mənəvi, siyasi, maddi və canlı qüvvə (yüzlərlə ərəb Əfqanıstanda sovetlərə qarşı savaşırdı) dəstəyi alan Taliban hərəkatı sovetlərə qarşı savaşan ən böyük güc idi. Savaş müqəddəs savaş elan olunduğu üçün dini hərəkat olan Talibanın üzə çıxması təbii idi.

Sovetlər Əfqanıstanı tərk edəndə Əfqanıstanda bir neçə güclü silahlı birləşmələr olsa da, 1996-cı ildə Talibanın digər rəqiblərini məğlub edərək Kabili ələ keçirib. Bu dövrdə Taliban Əfqanıstanın 85 faizini ələ keçirərək "Əfqanıstan İslam Əmirliyi" elan edib.

Lakin Talibanın Əfqanıstanda xalq arasında nüfuz qazanması, nəticədə hakimiyyəti ələ keçirməsinin təbii səbəbləri vardı. Müharibədən, yoxsulluq və rüşvətxorluqdan, ən mühümü isə qeyri-sabitlik, təhlükəsizliyin qorunmadığı Əfqanıstanda sovetlərə qarşı savaşan və hər biri özünü nəzarət etdiyi bölgənin ağası sayan silahlı qruplardan fərqli olaraq nəzarət etdiyi bölgələrə sülh, sabitlik, ədalət gətirirdi. Bu isə ilk vaxtlarda əhalinin diqqətini və marağını cəlb elədi. Nəticədə bir çox bölgələrin əhalisi xaos və anarxiya qarşısında Talibanın ədalətinə və gücünə sığındı. Bir də təbii ki, etnik amildir, çünki Taliban ən böyük etnik qrup olan puştunların təmsilçisi idi.

**Əlbəttə, Talibanla anlaşıb sülh bağlanması Əfqanıstanda müəyyən qədər sabitlik gətirə bilər. Ancaq o da məlumdur ki, indi Əfqanıstanda daha güclü bir qrup özünü göstərir. Bu İŞİD-dir. Ötən illərdə bir sıra silahlı qrup Talibandan ayrılaraq İŞİD liderinə biət edib. Yəni Talibanla anlaşma belə böyük sülhü gətirmək üçün yetərli olmaya bilər. Lakin istənilən halda illərdir davam edən müharibəyə son qoymaq üçün Talibanla anlaşma çox vacibdir. Çünki Əfqanıstanda yeni başlayan terrorun Orta Asiyaya yayılması riski var.**

❑ **KƏNAN,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 19 (7189) 26 yanvar 2019

# Bayılın "sürüşmə yarası" bir ildir sağalmır: sakinlər narahatdır...

**Sakin:** "Kirayə pulunu da kəsdikləri üçün camaat öz cibindən pul verib, mənzil tutur"



**Bayıl yamacının sürüşmə problemi bir ildən çoxdur ki, həll edilməmiş qalır. 2018-ci ilin son ayından etibarən Bayıl yamacında "Teleqüllə" ətrafındakı sürüşmə zonasında yaşayan sakinlərə ayrılan kirayə pulları dayandırılıb. Lakin onların evlərində yaşamaları üçün şərait təmin olunmayıb. Belə ki, hazırda əhalinin bir qisminə təbii qaz, su verilsə də, digər qisminin qaz boruları kəsilib.**

Öncə yada salaq ki, Bayıl ərazisində "Teleqüllə" yaxınlığında olan sürüşmə səbəbindən ərazidə məskunlaşan 98 ailə ötən ilin yanvar ayından etibarən 11 aylıq müddətə kirayə mənzillərə köçürülüb. Sakinlər bildiriblər ki, verilən kirayə pulu az olduğu üçün Bayıl ərazisində ev tapmağa çətinlik çəkiblər. Ona görə də məcbur qalıb, ya kənar ərazilərdə ev tutublar, ya da öz evlərinə geri dönüblər. Kirayə pulunun məbləğinə gəlincə isə qeyd edək ki, normativlərə uyğun olaraq ailə tərkibi 1-5 nəfər arası olanlara 200 manat, 6-7 nəfər olana 250 manat, 8-dən çox olanda 300 manat müəyyən olunub. O əraziyə işıq, qaz və digər kommunal xidmətlər müvəqqəti dayandırılıb.

Ötən ilin noyabr ayında sakinlərə bildirilmişdi ki, ilin sonuna qədər ərazi ilə bağlı yekun qərar veriləcək. Lakin il başa çatsa da, problemlər bitmədi. Sakinlər hələ də gözləmə mövqeyindədir.

"Yeni Müsavat"a danışan **sakin Elməddin Muradlı** bildirib ki, 25 gündür insanlar öz hesablarına kirayə mənzil tutub, yaşayırlar:

"Çünki evlərində şərait yoxdur və qayıda bilmirlər. İcra hakimiyyətinin nümayəndələri deyirlər ki, sizə kirayə pulu verməyimiz üçün elektrik xəttini kəsin, şəkilini çəkib, gətirin baxaq. Deyirlər ki, yalnız bundan sonra inanıb, pul verə bilərik. Qaz da ki, gəlmir. Suyu da arada kəsib, arada verirlər. Bu cür ağır şəraitdə heç kim evinə qayıda bilmir. Çünki qışın ortasıdır, havalar soyuq keçir. Bəzi sakinlər soba alıb, yeməklərini bişirirlər. Özləri bir neçə evə qaz verib, qalanlarını kəsiblər. Deyim ki, şahmatvari formada qaz veriblər. Məsələn, sürüşməyə çox yaxın əraziyə qaz verilişini təmin ediblər. Deyirlər ki, bu ərazidə təhlükə yoxdur və qazı vermək olar. Ancaq bizim ev həmin ərazidən 900 metr aralıdadır, bizə qaz vermirlər. Səbəb kimi də deyirlər ki, sizin ev təhlükəli xəttin üstünə düşür. Bilmirsən ki, bu adamlar təhlükəli xətti nə zaman müəyyənləşdiriblər. Əgər burada təhlükəli xətt varsa, nə üçün heç bir ekspertiza bu barədə rəy verməyib. Komissiyanın da məsələ ilə bağlı rəyi yoxdur. Bəs o zaman hardan bilirsiniz ki, belə bir təhlükəli xətt var. Bir il ərazidə bu ərazidə heç bir sürüşmə hadisəsi qeydə alınmayıb. Hər hansı formada dəyişiklik də yoxdur. Necə olur ki, təhlükəli xətt var, ancaq sürüşmə yoxdur? Ekologiya və Təbii Sərvətlər Nazirliyi dəfələrlə rəy verib ki, ərazidə heç bir aktivlik müşahidə olunmur. Burada bir bəla var ki, o da kanalizasiya, yağış sularıdır. Bütün bu suların axıntısı üçün yer, xətt mövcud deyil. Həmin xətt çəkilərsə, kanalizasiya sistemi qurularsa, problem qalmaz".

**Sakin bildirib ki, kirayə puluna və digər məsələlərə ayrılan pulu kanalizasiya sisteminə ayırsaydılar, vəziyyət düzələrdi:**

"11 aylıq kirayə pulu ayırdılar, onu da kim evinə qayıtdısa, kəsdilər. İndi də 11 ay başa çatıb, nə müddəti artırırlar, nə də yaşamağımıza imkan verirlər. Hər gün deyirlər ki, gözləyin, komissiya bu həftə cavab verəcək. Yanvarın 19-da Eldar Əzizovla danışdım. Mənə dedi ki, yaxın günlərdə komissiyanın qərarı olacaq və biz ona uyğun addım atacağıq. Yaxşı, bəs komissiyanın qərarı yoxdursa, heç kim nə isə bilmirsə, bu qədər camaatı niyə köçürüblər? Niyə yalandan deyirlər ki, filan yerdə təhlükəli xətt var, bu ev həmin xəttə düşür və sairə. Komissiyanın qərarı yoxdursa, bu adamlar xətləri necə icad edə bilirlər? Bir sözlə, digərini tutmur. Kirayədə yaşayanların hamısı bu dəqiqə öz hesablarına mənzil tutublar. Ötən həftə eşitdim ki, 46 saylı Mənzil İstismar Sahəsinin əməkdaşları sakinlərə deyiblər ki, ola bilər 2 aylıq əlavə kirayə pulu verilsin və yekun nəticə martda açıqlansın. Ötən il camaatı ərazidən köçürən zaman da dedilər ki, 3 ay ərzində yekun rəy veriləcək. Sonra bildirdilər ki, maksimum 6 ay ərzində ərazinin taleyi həll olacaq. İndi də 1 il iki aya qədər uzadılar. Bilinmir ki, dedikləri vaxt gələndən sonra nələr baş verəcək".

**E.Muradlı bildirib ki, sürüşmənin olduğunu desələr də, ərazidən axan məişət sularına nəzarət etmirlər:**

"Ərazidə kanalizasiya sistemi bərbad haldadır. Bütün günü yollardan, məhəllələrdən su axır. Sürüşmənin də səbəbi elə bu sulardır. Həmin suları illərdir ki, bir istiqamətə yönəldə bilmirlər. Əvvəllər orada kanalizasiya sistemi tutaq ki, 150 ev üçün qurulub. Hazırda isə orada 500-ə yaxın ev var. Bu evlərin tikintisinə icazə verən zaman kanalizasiya xəttini də düşünmək lazım idi. Heç olmasa icazə vermək üçün aldıqları pulun bir hissəsini kanalizasiya sisteminin qurulmasına ayırsaydılar, indi belə problem olmazdı. Əhalinin sayı artırsa, evlərin də sayı artmalıdır. Dövr dəyişdikcə, insan sayı artdıqca, sistem də dəyişir. Bu adamlar oraya göydən düşməyiblər. Hamısına müvafiq qurumlar icazə veriblər ki, ev tiksinlər. İndi də danırlar. Su-kanalizasiya sistemi düzəlməsə, problem ola bilər. Bu gün də orada nəinki avtomobil üçün, heç piyada üçün də quru yol yoxdur. Hamısından kanalizasiya, yağış suyu axır. Problemin də əsasında bu dayanır".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**



## «Bakcell» və «Premium Bank» arasında əməkdaşlıq memorandumu imzalanıb

**Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi «Bakcell» şirkəti və ölkənin ən nüfuzlu banklardan biri olan «Premium Bank» arasında əməkdaşlıq memorandumu imzalanıb.**

**Maliyyə və bank sektorunda «Bakcell»in ən böyük korporativ abunəçilərindən biri olan «Premium Bank»la imzalanmış sənəd tərəflər arasında əməkdaşlığın genişləndirilməsi məqsədilə qarşılıqlı fəaliyyətin təşkili və müxtəlif sahələrdə birgə layihələrin icra edilməsini nəzərdə tutur.**

**«Bakcell» şirkətinin baş icraçı direktoru Nikolai Beckers və «Premium Bank»ın Müşahidə Şurasının sədri Elçin Əhmədov tərəfindən imzalanan əməkdaşlıq memorandumu çərçivəsində tərəflər telekommunikasiya və bank sahəsində birgə məhsul və xidmətərin təqdim olunması imkanlarını müzakirə ediblər.**

**«Bakcell» şirkəti hazırda müxtəlif sahələri təmsil edən 3500-dən artıq korporativ müştəriyə xidmət edir. «Bakcell» ölkə iqtisadiyyatının bir çox sektoru üzrə ən böyük korporativ telekommunikasiya xidmətlərinin təminatçısıdır. Şirkət Azərbaycanda fəaliyyət göstərən yerli və beynəlxalq şirkətləri ən yüksək keyfiyyətli telekommunikasiya həlləri ilə təmin edir. «Bakcell»in peşəkar komandası şirkətlərə, dövlət qurumlarına və digər təşkilatlara mobil telekommunikasiya sahəsində istənilən növ xidməti göstərməyə hazırdır. «Bakcell» özünün korporativ abunəçilərinə təhlükəsiz və etibarlı rabitə təqdim etməklə daha effektiv fəaliyyət göstərməkdə, müştəriləri ilə əməkdaşlıq və sıx ünsiyyət qurmaqda onlara dəstək göstərməklə ölkə iqtisadiyyatının və ümumi biznes sektorunun inkişafına töhfə verir.**

### «Bakcell» haqqında

**Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi «Bakcell» şirkəti müasir mobil kommunikasiya xidmətləri istifadəçilərinə geniş çeşiddə məhsullar təklif edir. Şirkət öz abunəçilərinə ən mükəmməl 4G/LTE mobil internet xidməti göstərir.**

**«Bakcell» şirkətinin 4G şəbəkəsi artıq bütün Bakı və Abşeron ərazisi daxil olmaqla ölkənin 40-dan çox rayon və şəhər mərkəzlərində mobil operatorun abunəçilərinə ən üstün müştəri təcrübəsi təmin edir.**

**7000-dən artıq baza stansiyası vasitəsilə «Bakcell» şəbəkəsi əhalinin 99%-ni, ölkə ərazisinin isə 93%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir. Mobil rabitə şəbəkələrinin müqayisəli testləri (bençmarkinq) sahəsində beynəlxalq lider və ən etibarlı müstəqil təşkilat olan "P3 Communications" şirkəti tərəfindən «Bakcell» şirkəti Azərbaycanda sınaq nəticələrinə görə, ən yaxşı şəbəkə adına layiq görülüb ("Best in Test"). 2018-ci ildə şirkət "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" adına layiq görülüb. Bu mükafat bütün dünyada tanınmış "Ookla" şirkəti tərəfindən «Bakcell»ə Azərbaycan Respublikası ərazisində ən sürətli mobil internet xidmətlərinin göstərilməsinə görə təqdim edilib.**

**«Bakcell» və onun məhsul və xidmətləri haqqında ətraflı məlumat əldə etmək üçün, xahiş edirik, www.bakcell.com internet səhifəsinə daxil olun və ya 555-ə zəng edin. Press-relizlərlə tanış olmaq üçün www.«Bakcell».com/az/news (və ya İngilis dili üçün www.bakcell.com/en/news) səhifəsinə daxil olun.**

**Qeyri-«Bakcell» abunəçiləri isə 012 498 89 89 nömrəsinə zəng etməklə «Bakcell»in məhsul və xidmətləri haqqında məlumat əldə edə bilərlər.**




## "Nar" abunəçiləri "WhatsApp"dan pulsuz istifadə edir

Ölkənin ən gənc və innovativ mobil operatoru olan "Nar" abunəçilərini sevindirməyə davam edir. Bütün "Limitsiz İnternet" paketlərinə qoşulan "Nar" abunəçiləri üçün "WhatsApp" pulsuzdur. Hətta meqabaytlar bitdikdən sonra da abunəçi istifadə müddətinin sonuna qədər pulsuz internetdən və "WhatsApp" ilə limitsiz yazışmadan yararlana bilər. Üstəlik, "XL", "2XL" və "3XL" paketlərində gecələr internet trafiki tam sürətli olmaqla yanaşı, həm də pulsuzdur və paketin meqabaytlarından istifadə edilmir.

Qeyd edək ki, "Nar" abunəçilərə müxtəlif həcmli "Limitsiz İnternet" paketlərdən birini seçmək imkanı verir. İstifadəçilər həm mobil telefonunda, həm də kompüterdə 150 Mb/s-dək sürətdən zövq ala bilərlər. Bundan başqa, sifariş edilən "Limitsiz İnternet" paketin trafiki bitmədiyi halda belə, abunəçi yeni "Limitsiz İnternet" paketi sifariş edə bilər. Bu zaman hər iki paketin meqabaytları cəmlənəcək və ancaq hər paketin trafiki uyğun paketin istifadə müddəti ərzində aktiv olacaq. Aktiv paketlərin istifadə müddəti bitdikdən sonra sonuncu sifariş edilmiş paket yenidən aktivləşəcək.

"Nar"-ın "Limitsiz İnternet" paketləri haqqında daha ətraflı məlumatı nar.az ttps://www.nar.az/turbo-internet-paketi-tel internet səhifəsindən əldə etmək olar.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7400-dən artıq baza stansiyası ilə 2,2 milyona yaxın abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" keçirib və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanıb.

YENİ MÜSAVAT
N 19 (7189) 26 yanvar 2019

**Hər bir azərbaycanlının qida menyusunda şəkər tozu və qənd vazkeçilməz məhsullardan biridir. Səhər yeməklərini şirinçayla başlayan , gün ərzində bütün çay fasilələrində qənddən istifadə edən, şirniyyat və mürəbbələrdən imtina etməyi ağlına belə gətirməyən insanlar ölkəmizdə artan şəkərli diabet statistikasının formalaşmasında rol oynadıqlarını nəzərə almırlar.**

# Şirin-şirin can alan "ağ ölüm"...

## Leyla Zülfüqarova: "Qəndlə çay içmək və şirinçaylı səhər qəhvəaltıları şəkərli diabet xəstəliyi üçün dəvətnamədir"

Dünya ölkələrinin çoxunda şəkərli diabet bilavasitə ölüm səbəbləri arasında ürək-damar və onkoloji xəstəliklərdən sonra üçüncü yeri tutur. Bu xəstəlik vaxtında müalicə olunmayanda, vaxtında profilaktiki tədbirlər görülməyəndə, çox ciddi fəsadlar törədir. Statistik məlumatlar göstərir ki, təəssüf ki, Azərbaycanda da diabet xəstələrinin sayının artması müşahidə olunur. Məsələn, 2017-ci ildə müalicə-profilaktika müəssisələrinin qeydiyyatında təqribən 243 min diabet xəstəsi olduğu halda, 2018-ci ilin 8 ayı ərzində onların sayı 263 min 057 nəfərə çatıb. Bundan əlavə, Azərbaycanda 1654 uşaq bu xəstəlikdən əziyyət çəkir.

**Dietoloq Leyla Zülfüqarova** da "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, ağ qəndlə çay içmək və şirinçaylı səhər qəhvəaltıları kökəlmənin birinci səbəbidir, eyni zamanda şəkərli diabet xəstəliyi üçün dəvətnamədir: "Ölkədə şəkərli diabet xəstələrinin sayı çoxalır. Ümumiyyətlə, bizim mətbəximizdə karbohidratlı qidalar çoxdur. Çörək, tərəvəzlərdən kartof, kök və sair hamısı karbohidratdır. Onlar həzm olunarkən orqanizmdə qlükoza yaranır. Bir də var ki, birbaşa olaraq orqanizmə qlükozanı yükləmək. Bu metabolizmi zəif olan orqanizm üçün daha çətindir, onu həzm prosesindən keçirmək də çətindir. Qanda artıq qlükozanın səviyyəsi yüksəlir. Nəticədə mədəaltı vəz tərəfindən ifraz olunan insulin hormonu artır. İnsulin hormonunun vəzifəsi insanı şəkərli diabetdən qorumaqdır. Orqanizmə nə qədər çox şəkər daxil olursa, insulin hormonu da bir o qədər artır. Artıq müəyyən bir həddən sonra şəkəri parçalamağa insulinin də gücü çatmır. O zaman insanda ikinci tip şəkərli diabet yaranmağa başlayır. Bu bir-iki gün içində yaranmır. İnsanların bəziləri iddia edirlər ki, qorxu və stressdən şəkərli diabetə tutulublar. Bu 3-5 nəfərdə belə ola bilər, daha çox səhv qidalanma nəticəsində yaranır. İnsanlar müəyyən müddət şəkərönü bir vəziyyətdən əziyyət çəkirlər".



**L.Zülfüqarovanın sözlərinə görə, bu dövrün əlamətləri ilk növbədə çəkinin artması, kökəlmədir:** "Bu zaman insan daha çox qarın çevrəsindən piylənməyə başlayır. İkinci əlamət çox susamaqdır. İnsanlar daha çox birinci tip şəkərli diabet əlamətləri görəndə qorxurlar, başa düşmürlər ki, ikinci tip şəkər də qorxuludur. Birinci tip şəkər əlamətləri sidiyə tez-tez getmək, gecələr durub su içməkdir. Bu qorxulu simptomlar olmadıqda insanlar arxayın olurlar ki, şəkər xəstəliyinə tutulmayıblar. İkinci tip şəkərə meyllilikdə insan tez-tez acır, yeməkdən doymur və qarın çevrəsindən kökəlir. Bu ikinci tip şəkər xəstəliyinə aparan yoldur, şəkərönü vəziyyətdir. Bu mərhələdə özümüzü qorumalıyıq. Əgər üstünə vaxtında düşməsək, daha da inkişaf edib birinci tip şəkər yaranmağa başlayır. O zaman insan daha çox susayır, arıqlamağa başlayır. Bu zaman artıq geri dönüş də çətinləşir, orqanizmdə insulinin ifraz olunması azalır. Bu daha qorxulu məqamdır. Həkimlər belə olduqda xəstələri sintetik insulinlərə keçirirlər. Çünki qeyri-düzgün bəslənmə tüğyan edir. Endokrinoloqlar xəstəni insulinə keçirirlər, mən bunun əleyhinəyəm. Mən sadəcə doğru qidalanma ilə xəstələrimi həm arıqladır, həm də şəkərini normada saxlayıram. İnsulin vurduğu halda şəkəri 400-ə yüksələn insanı mən iynədən imtina etdirərək, sadəcə düzgün qidalanma ilə şəkərini 250-ə salıram. Qidalanmaq bu məsələdə çox önəmlidir".

**Dietoloq hesab edir ki, hazırda endikrinologiyada çox səhv tendensiya gedir:** "İkinci tip şəkərli diabetə keçən xəstəyə artıq insulin iynəsi yazırlar, o da başlayır bu iynəni almağa. Belə ki, bu xəstədə uzun müddət şəkərönü vəziyyət olub, xəstə üstünə düşməyib. Daha sonra insulin ifrazı azalıb və həkimlər buna görə bədənə sintetik insulin daxil edirlər. Nəticədə bədən tənbəlləşir. Mədəaltı vəz onsuz da insulini az ifraz edirdi, indi heç ifraz etmək istəmir. Biz bu duruma düşməmək üçün şirinçaydan, ağ qənddən imtina etməliyik. Mən bununla bağlı kitab da yazdım. Ölkənin baş endokrinoloqu da məni dəstəklədi, rəy verdi. Ancaq yenə də insanlar şəkərdən istifadədən əl çəkmirlər. Səhər yeməyini əvvəlki qaydada saxlamaqla yalnız şirinçayı oradan çıxara bilərik. Çaysız yeyəndə də səhər yeməyi dadlı olur, sadəcə buna öyrəşmək lazımdır. İnsanlar ilk 3-4 gün əziyyət çəkir, daha sonra bədən özü şəkər tələb etməyəcək. Çayı qəndlə deyil quru meyvələrlə içmək lazımdır. Hətta mən xurma kimi şəkər səviyyəsi çox yüksək olan meyvəni də tövsiyə edirəm, ən azı şirinçaydan daha yaxşıdır. İran bizə qonşu ölkədir, orada şəkərli diabetdən əziyyət çəkənlər çox azdır. Çünki onlar uzun illərdir quru meyvələrdən bol-bol istifadə edirlər. Bizim ölkəmizə gələn quru meyvələr də elə oradan gəlir".

❑ **Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

# Avtomobillərin geri çağırılmasının gizlinləri

## İndiyə qədər milyonlarla maşının geri çağırılması xəbəri yayılsa da, şirkətə qaytarılma faktları yox dərəcəsindədir...

**"Toyota" şirkəti ABŞ-da 1,3 milyona yaxın avtomobili geri çağırıb. Qərar avtomobillərdə Yaponiyanın "Takata" şirkətinin istehsalı olan təhlükəsizlik yastıqlarının dəyişdirilməsi ilə əlaqədardır.**

Qeyd olunur ki, "Takata"nın təhlükəsizlik yastıqları qəza zamanı həddən çox böyük qüvvə ilə açıla və sürücünü metal və plastik hissəciklərin zərbəsinə məruz qoya bilər.

Bir neçə avtomobil şirkəti var ki, tez-tez bu cür xəbərlər yayaraq, milyondan yuxarı avtomobilini geri çağırır. Onlar arasında "Toyota" ön sıralarda gəlir.

Statistikaya nəzər salsaq görərik ki, dünyaca məşhur "Mercedes", "Porsche", "Opel" və "Audi" şirkətləri Almaniyada 600-dən çox avtomobilini geri çağırıb.

2016-cı ildə yenə də "Toyota" təhlükəsizlik yastıqlarında olan problemə görə dünya üzrə 5,8 milyon avtomobili geri çağırıb. Geri çağırılan avtomobillər 2000-ci və 2004-cü illərdə istehsal edilən, o cümlədən "Corolla" və "Yaris" modelləri olub.

Daha öncəki illərdə də "Takata" şirkətinin təhlükəsizlik yastıqları ilə təchiz olunan avtomobillər geri çağırılıb. Bundan başqa bir neçə avtomobil



istehsalçıları bəyan ediblər ki, "Takata"nın təhlükəsizlik yastıqları avtomobil hərəkətdə olan zaman öz-özünə açıla bilər. Günah "Takata"nın üzərinə atılsa da, əslində burada başqa məqamlar barəsində də danışılır ki, bunu da aşağıda qeyd edəcəyik...

Geri çağırılan avtomobillərlə bağlı xəbərlərə nəzər saldıqda, Yaponiya şirkətləri ön sırada gəlir. Məsələn, 2013-cü ildə dörd məşhur yapon avtomobil şirkəti dünya boyu təxminən 3.4 milyon avtomobili hava-yastıqlarında mümkün problemlər ucbatından geri çağırıb.

Bu dəfə də şirkətlər Yaponiyanın avtohissələr istehsal edən "Takata" şirkəti tərəfindən hazırlanmış nasaz hava yastıqlarının partlaya və ya yanğına səbəb ola biləcəyini deyib.

*Bəs "Takata"nın günahı olubmu?*

Öncə hər dəfə adı hallanan bu şirkətlə bağlı qeyd edək ki, 2017-ci ildə şirkət saxtakarlığa yol verdiyini etiraf edib. "Takata" milyonlarla avtomat hava yastıqlarının ölümcül qüsuru olduğunu gizlətdiyi üçün bir milyard dollar məbləğində cərimələnib.

"Takata" şirkətinin vəkilləri Detroyt federal məhkəməsində şirkətin istehsal etdiyi hava yastıqlarının güclü partlayışla açıldığını, həm sürücü, həm də sərnişinin xəsarət ala biləcəyi ilə bağlı məlumatı gizli saxladığını etiraf edib.

Şirkətin bu qüsuru dünya boyu 16 nəfərin ölümünə, 200-ə qədər insanın yaralanmasına səbəb olub ki, buna görə 42 milyon avtomobil və 60 milyon hava yastığı geri çağırılıb. Bu, avtomobil sənayesi tarixində ən böyük geri çağırış olub.

Cərimələrə 850 milyon dollar avtomobil istehsalçıları, 125 milyonu isə qurbanların ailələrinə ödənilməsi də daxil edilib. "Takata" bundan əlavə 25 milyon dollar kriminal cəriməsi ödəməli olub. Həmin ilin iyun ayında isə şirkət rəsmən müflis olduğunu elan edib.

*Bəs avtomobillərin geri çağırılması prosesi necə aparılır və bu, həqiqətən də baş verirmi?*

Avtomobillərin geri çağırılması onların mühərrikinin nömrəsinə uyğun olaraq həyata keçirilir. Bu zaman həmin nömrələr və məlumatlara əsasən, avtomobilin hansı ölkədə olduğu, onun sahibi müəyyənləşdirilir. Sahib müəyyənləşdirildikdən sonra isə ona geri çağırılma haqqında məlumat verilir. Şirkətlər təcrübələrə görə bəzən modelin istehsalından bir neçə il sonra geri çağırma ilə bağlı məlumatı yayırlar. Belə olduğu halda isə beynəlxalq təcrübəyə görə avtomobil sahibinə onun avtomobili ilə eyni markada olan digər avtomobil verilməlidir. Yaxud da avtomobil sahibi bununla razılaşmırsa, o zaman ona kompensasiya təklif edilməlidir. Bütün hallarda şirkət müştərini razı salmalıdır.

Lakin ekspertlərin fikrincə, şirkətlər bu məsələdən reklam kimi istifadə edirlər. Yeni reallıqda isə şirkətin yuxarıda sadaladığımız prosedurlar çox az hallarda həyata keçirilir. Məlumatlara görə, Almaniyadan idxal edilən maşınları sonrakı mərhələdə, ikinci əl olsa belə müəyyənləşdirilmək imkanları var. Yaponiyadan, ABŞ-dan Dubaya idxal olunub, sonra isə Azərbaycana gətirilən və başqa-başqa ölkələrdə bir neçə dəfə istismar olunan maşınların geri çağırılmasında isə problem olur. Çünki belə məqamda həmin maşınların harada olduğunu tapmaq çətinləşir. Bu mənada Azərbaycandan hansısa avtomobilin geri çağırılması məsələsi müşküldür. Avtosalonlarla əlaqə saxlayıb öyrəndik ki, ümumiyyətlə, indiyə qədər ölkədə bu cür hal reallaşmayıb...

"Yeni Müsavat"a danışan **ekspert Elməddin Muradlı** da bu cür xəbərlərin reklam xarakterli olduğunu bildirdi: "Avtomobillərin geri çağırılması ilə bağlı informasiyaların əksəriyyəti reklam kampaniyası kimi qəbul olunur. Konkret olaraq göstəriləndə ki, hansısa ölkədə olan avtomobillər geri çağırılır, bu, müəyyən qədər real görünür. Ancaq ümumi elan verildikdə ki, filan illərdə istehsal olunan avtomobilləri geri çağırırlar bu, reklam xarakterli olur. Heç bir şirkət durub özünü pisləməz ki, 1 milyon maşında səhv etmişəm. Bu cür məlumatlar o qədər adi hala çevrilib ki, artıq insanlarda da inamsızlıq yaranıb və xəbərlər gülüş obyektinə çevrilib. Ortaya real adam çıxıb deməyib ki, məsələn "Toyota" şirkəti mənim maşınımı apardı, problemi aradan qaldırdılar. Azərbaycanda bu cür hal baş verməyib. Rusiyada da bu kimi halı müşahidə etməmişik. Bu maşınlar hara satılır ki, geri qayıtmır? Dünyanın hər yerindən Azərbaycana maşın gətirilir. Elə bir sxem yoxdur ki, ikinci əl maşınları tapıb, geri çağırsınlar. Elə maşın var ki, 5-6 adama satılıb. Onu tapmaq, araşdırmaq hamısı işdir, zamandır. Şirkətlərin o qədər imkanları yoxdur ki, milyonlarla maşını tapıb, təmirə gətirsin. Bunların hamısı uydurma, cəfəng məlumatlardır. Sadəcə olaraq diqqət çəkirlər ki, guya filan şirkət öz maşınlarına cavabdehlik daşıyır, hətta 10 il sonra da həmin avtomobili axtarıb, nöqsanları öz hesabına aradan qaldırır. Təbii ki, bütün bunlar həqiqət deyil. Məsələn, "Toyota" maşın satır, 3 il də zəmanət verir. 3 ay sonra gedirsən ki, mühərrikdə problem var, deyirlər ki, biz başqa detallara zəmanət vermişik. Yəni adi şeyə görə çox absurd variantlar tapırlar. Ona görə də şirkətlərin bu qədər avtomobili geri çağırması xəbərinə heç kim inanmır".

❑ **Əli RAİS, "Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 19 (7189) 26 yanvar 2019



# Evində saxladığı piton sonu oldu

Britaniyanın Beysinqstoun şəhərində 31 yaşlı ekzotik heyvan həvəskarı Den Brendonun ölümü araşdırılanda ortaya ilginc məqamlar çıxıb. Kişi öz valideynlərinin evində 12 tarantula, 10 ilan və 2.54 metr uzunluğu olan piton saxlayırdı. Valideynləri onun otağında səs-küy eşitsələr də, buna çox əhəmiyyət verməyiblər. Amma oğulları nahara gəlməyəndə ikinci mərtəbəyə qalxaraq onu üzü aşağı halda görüblər.

Tayni adlı pitondan başqa bütün heyvanlar öz yerində olub. Daha sonradan onu ilanlara qulluq üçün nəzərdə tutulan yeşiyin içində aşkar ediblər. Hadisə yerinə gələn və araşdıran mütəxəssislər mərhumun bədənində ilan dişinin yerini aşkar ediblər. Amma valideynləri hesab edir ki, ilan onu qəsdən zəhərləməyib və nəsə anlaşılmaz bir durum yaranıb. Bunu qəza hesab edən bir çoxları mərhumun öz heyvanlarını çox sevdiyini və onlara bağlı olduğunu, bu səbəbdən də heyvanlardan özünə zərər gələ bilməyəcəyini düşünürlər.

# Hovuza hoppandı, həyatı qaraldı



Böyük Britaniya sakini Türkiyəyə istirahətə gedəndə həyatının şokunu yaşayıb. 32 yaşlı Cemma Coslin Türkiyəyə tətilə gedib və otelə çatan kimi iki uşağı ilə birgə əyləncə parkına düşüb. O, hovuzlardan birinə hoppananda diqqətsizlikdən üzən qadını görməyib. Nəticədə ciddi travma alan qadın dərhal xəstəxanaya çatdırılıb. Belə ki, onun qabırğasında beş qırıq yaranıb, böyrəyi zədələnib və daxili qanaxma başlanıb. Turisti xəstəxanaya çatdırıblar və orada təcili əməliyyat ediblər. Xəstəxanada olanda məlum olub ki, sığorta onun məsrəflərini ödəmir. Bu səbəbdən də turist qadının sevgilisi xəstəxana xərcləri üçün 5 min funt sterlinq ödəmək zorunda qalıb. Coslinin sözlərinə görə, insident 2018-ci ilin sentyabrında baş versə də, hələ də aldığı travmaların əziyyətini yaşayır. Bundan başqa, əməliyyat nəticəsində qarnında da böyük bir çapıq izi qalıb.

Britaniyalı qadın hotel rəhbərliyini məhkəməyə verib. Qadın iddia edir ki, hoteldə təhlükəsizlik qaydalarına riayət olunmayıb.

# Qadın Uqandaya tətilə getdi, buynuzla geri qayıtdı



Böyük Britaniya sakini olan bir qadın alnındakı şiş və ağrılara görə həkimə müraciət edib. Uqandada tətildən geri dönən qadına həkimlər ona antibiotiklərdən istifadəni tövsiyə ediblər. Amma üç gün sonra başındakı ağrılar azalmadığı üçün yenidən həkimə müraciət edib. Onun başındakı şişin daha da böyüdüyü üzə çıxıb.

Ətraflı araşdırmalar zamanı müəyyən olub ki, iki qurd britaniyalı bir qadının dərisində yer alıb. Onlardan biri neft jeli tətbiq olunduqdan sonra çıxarılıb. Lakin sonradan aparılmış ultrasəs müayinəsi başqa bir canlının saç böyüməsi sahəsində olduğunu göstərib.

Daha sonra aydınlaşıb ki, qadın Uqandada olanda başına bağladığı dəsmalda milçəyin yumurtaları olub. Ehtimal edilir ki, bu, xəstənin dərisinin altında qalıb və daha sonra yaraya çevrilib.

2018-ci ilin oktyabr ayında isə Çində 11 canlı parazit bir körpənin gözündən çıxarılıb. Yəqin ki, uşaq qonşuların ev heyvanları ilə ünsiyyət nəticəsində zərər görüb.




**QOÇ** - Sürprizlərlə dolu bir gün yaşayacağınız güman olunur. Ola bilsin ki, bu təqvim yani ilin ilk yaddaqalan tarixinə çevrilsin. Hər cəhətdən buna hazırlaşın. Hər bir prosesə soyuqqanlı yanaşın.

**BUĞA** - Havaların qeyri-sabitliyi sizə mənfi təsir göstərməkdədir. Odur ki, var gücünüzlə sağlamlığınızı qoruyun. Nahardan sonra şəxsi işlərinizdə böyük dəyişikliklər mümkündür.

**ƏKİZLƏR** - Təzadlı bir gün yaşayacaqsınız. Ətrafınızda cərəyan edən situasiyalar gah müsbət, gah da mənfi istiqamətə yönələ bilər. Belə məqamlarda dostlarınızla birgə olmağa çalışın.

**XƏRÇƏNG** - Özünüzü lovğa və ya təkəbbürlü aparmayın. Bu gün sizə sadə görünmək lazımdır. Bu yolla özünüzə qarşı rəğbət oyada bilərsiniz. Günortadan sonra qarşınıza yaxşı adamlar çıxacaq.

**ŞİR** - Pulla bağlı problemləriniz olsa da, qalan məsələlərdə ovqatınız xoş olacaq. Xüsusən də münasibətlər zəminində cərəyan edən proseslərdə rahatlıq tapacaqsınız. Uzaq yola çıxmayın.

**QIZ** - Ulduzların düzümü səfərə çıxmaq üçün münasib vaxt olduğunu bildirir. Maddi durumunuz imkan verirsə, bundan imtina etməyin. Ətrafınızda olan insanları real qiymətləndirməkdə yanılmayın.

**TƏRƏZİ** - İxtiyarınızda olan bu təqvim sizə düşərli olacaq. Çünki ulduzlar xoş ovqat və qazanc əldə edəcəyinizi bildirir. Oturaq işlərə çox da həvəs göstərməyin. Aktivliyinizi artırın.

**ƏQRƏB** - İkitərəfli əməkdaşlıq çox uğurludur. Əlavə adamlar planlarınızı poza bilər. Tanınmış şəxslərlə əlaqələrinizi dərinləşdirin. Günün ikinci yarısında yeni simalarla görüşləriniz mümkündür.

**OXATAN** - Bəri başdan nəzərinizə çatdıraq ki, bu gün başlıca vəzifəniz sağlamlığınızı qorumaq olmalıdır. Digər məsələlərə isə ciddi yanaşmağa ehtiyac yoxdur. Əsas gücünüzü istirahətə verin.

**OĞLAQ** - İxtiyarınızda olan bu təqvimdə heç bir narahatçılığınız gözlənilmir. İşgüzar sövdələşmələrdə iştirak etsəniz, növbəti ayda probleminiz yaranmayacaq. Pulla bağlı ehtiyatlı olun.

**SUTÖKƏN** - Yaxşı olar ki, bürcünüzün "hakim" olduğu bu ərəfədə hisslərinizi cilovlayasınız. Əks təqdirdə arzulamadığınız qalmaqala tuş gələcəksiniz. Yeni əlaqələr uğurdan xəbər verir.

**BALIQLAR** - Gün ərzində özünüzü bütünlüklə fəaliyyətə həsr etməlisiniz. Münasibət və alqı-satqı məsələlərinə isə həvəs göstərməyiniz məqsədəuyğun deyil. Axşam işgüzar söhbətlər aparmaq sizə səmərə verəcək.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Plastik əməliyyata 250 min dollar xərclədilər və peşman oldular



**Avstraliyanın Pert şəhərindəki əkizlər plastik əməliyyata 250 min dollar xərcləyiblər. Amma onlar buna təəssüfləniblər, çünki əməliyyat sonrası bir-birinin eyni olublar. 31 yaşlı Anna və Lyusi Desink öz xarici görünüşlərinin identik olmasına çalışıblar, buna görə də plastik cərraha müraciət ediblər. Son nəticədə eyni kişi ilə görüşən qadınlar sinə, dodaq böyütməsi əməliyyatı ediblər. Avstraliyalı qadınlar eyni zamanda permanent makiyaj, kosmetik proseduralardan, lazerdən istifadə ediblər. "Bizə vaxtilə çox xoş görünən şeylər indi çox ikrah doğurur".**

Hazırda qadınlar əməliyyatdan öncəki təbii hallarını geri qaytarmağa çalışırlar. Bu ilin yanvarında məlum oldu ki, Nyu-York sakini daha cavan görünmək üçün plastik əməliyyatlara 62 min dollar sərf edib. 46 yaşlı Manus Vaskes bunun üçün 36 plastik əməliyyat keçirib.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.100

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.